RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 179 (9058) ÇƏRŞƏNBƏ AXŞAMI, 23 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Qalib ölkənin idmançıları



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşüblər

**Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşüblər. AZƏRTAC xəbər verir ki, dövlət başçısı görüşdə çıxış edib.**

2-3



## Prezident İlham Əliyev qalib idmançıları mükafatlandırdı

3

## Qətərdə keçiriləcək Futbol üzrə Dünya Çempionatı çərçivəsində ölkəmizə gələnlər üçün viza prosedurları sadələşdirildi

3

## İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin hərbi qulluqçularını təltif etdi

3

## Prezident "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərman imzaladı

3

## Birinci vitse-prezident Mehriban Əliyeva islamiadada medal qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında medal qazanan idmançılarımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı paylaşımında deyilir: "Azərbaycan idmançıları V İslam Həmrəyliyi Oyunlarını 99 medalla 4-cü sırada başa vurublar. Bunlardan 29-u qızıl, 36-sı gümüş, 34-ü isə bürünc medaldır. İdmançılarımızı səmimi-qəlbdən təbrik edirəm! Siz yarışlarda mükəmməl çıxış etdiniz, möhkəm iradə və məharət nümayiş etdirərək inamlı qələbə qazandınız! Gərgin əməyinizə, Azərbaycan azarkeşlərinə bəxş etdiyiniz sevincə görə çox sağ olun! Sizə möhkəm cansağlığı, yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!"



## Bu xəbər bizi olduqca kədərləndirdi



Türkiyə Respublikasının Prezidenti
zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım,

Qaziantep-Nizip yolunda baş vermiş nəqliyyat qəzası nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi olduqca kədərləndirdi.

Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2022-ci il*

## Azərbaycan ilə Serbiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb

**Avqustun 21-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı Prezident Aleksandar Vuçiç Azərbaycan ilə Serbiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Serbiya Prezidenti bu müddət ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini, dostluq və tərəfdaşlıq münasibətlərinin qurulduğunu dedi.

Prezident İlham Əliyev ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi münasibətilə Serbiya Prezidentini təbrik etdi, müxtəlif sahələrdə əməkdaşlığın inkişafından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycanın və Serbiyanın ikitərəfli və çoxtərəfli əsaslarda, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini vurğuladı.

Telefon danışığı zamanı Azərbaycan ilə Serbiya arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, kənd təsərrüfatı, enerji, investisiya və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı. Həmçinin Azərbaycan ilə Serbiya arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdığı, ölkələrimizin bir-birinin ərazi bütövlüyünü dəstəklədiyi qeyd olundu.

*Prezidentin Mətbuat Xidməti*



# Qalib ölkənin qalib idmançıları

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşüblər

## Prezident İlham Əliyevin çıxışı





- Əziz dostlar, əziz idmançılar.

Siz bir neçə gün bundan əvvəl Konyadan Vətənə qayıtmısınız, böyük qələbə ilə qayıtmısınız. Ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmısınız. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm və əldə edilmiş nailiyyətlərlə bağlı sizə öz təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Azərbaycan xalqı sizinlə fəxr edir. Çünki bütün dünyaya bir daha göstərmisiniz ki, Azərbaycan idman ölkəsidir, Azərbaycan idmançıları öz gücü ilə seçilən idmançılardır.

V İslam Həmrəyliyi Oyunlarında dördüncü yerə layiq görülmək çox böyük nailiyyətdir. Bu nailiyyət onu göstərir ki, bizim əvvəlki uğurlarımız təsadüfi xarakter daşımırdı. Bildiyiniz kimi, beş il bundan əvvəl Bakıda IV İslam Həmrəyliyi Oyunlarında komandamız birinci yerə layiq görülmüşdür. Bu da təbiidir. Çünki öz doğma divarları həmişə idmançılara əlavə kömək göstərir. Bu dəfə isə çox gərgin mübarizə nəticəsində biz dördüncü yerə layiq görüldük. Onu da bildirməliyəm ki, oyunlarda ölkələrin ən güclü idmançıları iştirak edirdilər. Bizim idmançılarımız 99 medal qazanaraq, - onlardan 29-u qızıl medaldır, - bir daha ölkəmizin gücünü göstərmişlər.

Onu da deməliyəm, bu da çox sevindirici haldır ki, idmançılarımız 19 idman növündə medallar qazanmışlar. Bu onu göstərir ki, idmanın bir çox növləri ölkəmizdə uğurla inkişaf edir. Əlbəttə ki, birinci yerdə, - əgər belə demək mümkündürsə, - güləşçilərdir, 23 medal qazanmışlar, onlardan 8-i qızıl medaldır. Bu da təbiidir. Çünki güləş bizim milli idman növümüzdür və biz güləşdə ənənəvi olaraq uğurlar qazanmışıq. İkinci yerdə gimnastikanın nümayəndələridir. Üç növ gimnastikada idmançılarımız 17 medal qazanmışlar, onlardan 8-i qızıl medal olmuşdur. Üçüncü yerdə qeyri-Olimpiya idman növü - kikboksinq idmançılarıdır. Onların qazandıqları medalların sayı 15-dir. Onlardan 3-ü qızıl medaldır. Yəni bu, doğrudan da, böyük nailiyyətdir. Çünki bu oyunlarda 50-dən çox ölkə iştirak edirdi və yenə də deyirəm, mübarizə çox gərgin keçib.

Mən sizinlə oyunların açılış günündə Konyada görüş əsnasında əmin olduğumu bildirmişdim ki, siz ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz. Şadam ki, belə də oldu. Bir daha nəinki bütün müsəlman aləmi, bütün dünya idmançılarımızın gücünü gördü. Hər dəfə Bayrağımız qaldırılanda, Himnimiz səslənəndə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirir və hər qələbə bir daha bizim şöhrətimizi artırır. Mən sizinlə Konyada görüş zamanı demişdim ki, sizin üzərinizə əlavə məsuliyyət düşür. Çünki siz bu oyunlarda qalib ölkəni təmsil edəcəksiniz. Bu, həm çox qürurverici amildir, eyni zamanda böyük məsuliyyətdir. Bu məsuliyyəti dərk edərək siz ölkəmizi ləyaqətlə təmsil etmisiniz. Baxmayaraq ki, əfsuslar olsun, bəzi hallarda hakimlər sizə qarşı ədalətsiz olmuşdular, qərəzli olmuşdular. Mən imkan daxilində yarışları izləyirdim və görürdüm ki, bizim idmançılarımıza qarşı nə qədər böyük ədalətsizlik göstərilir. Amma buna baxmayaraq, siz təmkinlə, həm özünüz, həm də ki məşqçiləriniz çox düzgün addımlar ataraq öz gücünüzü sübut etməyə çalışmısınız və buna nail olmusunuz.

Bu oyunlar qardaş ölkədə keçirilmişdir və əlbəttə ki, bizim idmançılar özlərini çox rahat hiss edirdilər. Hər bir idmançı özünü öz evindəki kimi hiss edirdi. Biz açılış mərasimində onun da şahidi olduq ki, Azərbaycan komandası stadiona daxil olanda bizim türk qardaşlarımız necə səmimi və hərarətlə idmançılarımızı qarşılamışlar. Elə bil ki, bizim komandamız Bakıda stadiona çıxıb. Bu, doğrudan da, bir daha bizim xalqlarımızın nə qədər bir-birinə bağlı olduğunu göstərir. Onu göstərir ki, təkcə prezidentlər bir-birinə qardaş deyil, eyni zamanda xalqlarımız, idmançılarımız qardaşdırlar. Orada - stadionda on minlərlə tamaşaçı Azərbaycan komandasını öz doğma komandası kimi qarşılamışdır.

Fürsətdən istifadə edərək Türkiyəni, onun idmançılarını həm oyunların yüksək səviyyədə təşkil olunması, həm də ki oyunlarda birinci yer tutması münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Onu da bildirməliyəm ki, bu oyunların keçirilməsi, əlbəttə, böyük təşkilatçılıq məsələlərini də əhatə edir. Xatırlayıram, biz 2017-ci ildə o oyunları hazırlayarkən bir çox təşkilati məsələləri həll etdik. Hər bir ölkə bu səviyyədə oyunları keçirə bilməz. Konya oyunları rəsmən Beşinci İslam Həmrəyliyi Oyunları sayılsa da, əslində, bu oyunlar cəmi dörd dəfə keçirilib. Birinci oyunlar Səudiyyə Ərəbistanında, ikinci İndoneziyada, üçüncü Azərbaycanda, dördüncü isə Türkiyədə. Amma rəsmən bu, beşinci Həmrəylik Oyunları sayılır. Yəni demək istəyirəm ki, oyunları keçirmək o qədər də asan məsələ deyil və burada Türkiyə tərəfi, əlbəttə, çox yüksək qiymətə layiqdir.

Oyunlar artıq tarixdir. İdmançılarımız bu medalları əminəm ki, qürur hissi ilə daşıyacaqlar. Ancaq indi biz gələcəyə baxmalıyıq, bundan sonra Azərbaycan idmanının inkişafı ilə bağlı hansısa addımlar atılmalıdır.

Siz də yaxşı bilirsiniz ki, son vaxtlar bir neçə federasiyada dəyişikliklər baş verdi. Bu təbiidir, bu, qaçılmaz idi. Çünki bəzi federasiyalarda mən görürdüm ki, artıq durğunluq hökm sürür, nəticələr əldə edilmir, bəzi idmançılarımız, ümumiyyətlə, beynəlxalq yarışlardan məhrum edilmişlər. Müvafiq beynəlxalq idman qurumları onları, bütövlükdə federasiyaları



cəzalandırırdılar, bəzi hallarda əsaslı, bəzi hallarda əsassız. Amma əfsuslar olsun, bu hallar baş verib və görürdük ki, artıq yeni təkana ehtiyac var. Bu yaxınlarda federasiyalarda və eyni zamanda Gənclər və İdman Nazirliyində baş vermiş dəyişikliklər əminəm ki, həm idmançılar, həm də idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir, çünki nəticələr göz qabağındadır. Çünki idmana cavabdehlik daşıyan qurumlar idmançılarla daim bir yerdə olmalıdırlar, hər bir idmançını tanımalıdırlar, onun problemləri ilə məşğul olmalıdırlar. Mən görürəm ki edilmiş dəyişikliklər nəticəsində hazırda nəticələr də var və olacaq. Əsas odur ki, Azərbaycanın idman ictimaiyyəti belə mütəşəkkil qüvvə kimi bir nöqtəyə vursun. Hər zaman bu, diqqət mərkəzində olan məsələ idi ki, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri bir nöqtəyə vursunlar, komanda şəklində fəaliyyət göstərsinlər və birlik olsun. Çünki mən 1997-ci ildən Milli Olimpiya Komitəsinin prezidentiyəm və bilirəm, hansı ölkələrdə hansı proseslər baş verir. Bir çox hallarda idmana cavabdehlik daşıyan qurumlar arasında birlik yoxdur, əksinə, ziddiyyətlər var. Bizdə isə bu birlik var və bu, hesab edirəm ki, uğurlarımızın əsas şərtlərindən biridir.

Əlbəttə ki, peşəkar idmançıları yetişdirmək asan məsələ deyil və məşqçilər, idman mütəxəssisləri çox böyük əmək sərf edirlər, seleksiya işləri çox düzgün aparılmalıdır. Bizim bölgələrimizdə çox böyük istedadlar var, uşaqlar, yeniyetmələr, sadəcə olaraq, onları seçib tapmaq, idmana cəlb etmək lazımdır. Bu gün Azərbaycanda idmana və xüsusilə idmançılara olan münasibət əminəm ki, gəncləri, uşaqları da idman bölmələrinə gətirəcək. Çünki həm idmanla məşğul olmaq üçün şərait var,- təkcə bölgələrdə 50-yə yaxın olimpiya idman kompleksi fəaliyyət göstərir,- biz Bakıda Avropa Oyunlarını, dünya çempionatlarını keçirmişik. Yəni bütün imkanlar var və idman bölmələrinə gələn uşaqları seçib onları yetişdirmək lazımdır, həm güclü idmançı kimi, həm ləyaqətli vətəndaş kimi.

Bu da çox vacib məsələdir. Mən çox şadam, çox sevinirəm ki, bizim idmançılarımız, ölkəmizi dünyada ləyaqətlə təmsil edən idmançılar məişətdə də nümunəvi davranışla fərqlənirlər. Bu, çox vacibdir. Həm təvazökarlıq, həm Vətənə bağlılıq, milli dəyərlərə bağlılıq, fiziki güc, mənəvi güc. Çünki fiziki güc, necə deyərlər, mənəvi gücü də gücləndirir.

Oyunlardan sonra isə əlbəttə ki, istirahət dövrü olmalıdır, amma çox çəkməməlidir, çünki qarşıda Yay Olimpiya Oyunları durur, o qədər də çox vaxt qalmayıb, cəmi 2 il qalıb. Ona görə yaxın aylarda artıq hazırlığa başlamaq lazımdır, ondan sonra təsnifat turnirləri başlayacaq, komandamız formalaşacaq. Hesab edirəm ki, indi bütün idman qurumlarının əsas məqsədi Yay Olimpiya Oyunlarına hazırlıq olmalıdır. Mən əminəm ki, bütün idman qurumları burada da öz vəzifə borclarını bilirlər, yaxşı dərk edirlər və beləliklə, Yay Olimpiya Oyunlarında biz ölkəmizi ləyaqətlə təmsil edəcəyik.

Bir daha sizi ürəkdən təbrik edirəm - bütün komanda üzvlərini, medal qazanmış idmançıları, medal qazana bilməyən idmançıları. Mən onlara da deyirəm ki, peşman olmasınlar, hələ gələcəkdə bir çox yarışlar var. Sadəcə olaraq, Vətənə sevgi, öz peşəsinə sədaqət, yorulmaz fəaliyyət, hazırlıq lazımdır. Çünki hazırlıq olmadan heç bir nəticə olmur, nə siyasətdə, nə idmanda, nə həyatda. Siz artıq bir daha Azərbaycanın şöhrətini ucaltmısınız və necə ki, bu gün bayrağımız Qarabağda, Zəngəzurda dalğalanır, idman arenalarında da dalğalanır, əminəm ki, əbədi dalğalanacaq. Bir daha sizi təbrik edirəm.

* * *

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan nümayəndə heyətinin rəhbəri **Elnur Məmmədov** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli Mehriban xanım.

İlk olaraq vaxt ayırıb bizi qəbul etdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk. Məlumat üçün bildirmək istəyirik ki, Azərbaycan nümayəndə heyəti bu oyunlarda ən böyük nümayəndə heyəti ilə - 282 idmançıdan əlavə, məşqçi, texniki, idman heyəti ilə yanaşı, media və rəsmi nümayəndələrlə birlikdə 484 nəfərlə təmsil olunurdu. Sizin avqustun 9-da Konyada Atletlər kəndində bizim idmançılarla görüşünüz idmançılarımıza əlavə stimul oldu və nəticədə 99 medal qazandılar. Onlardan 29-u qızıl, 36-sı gümüş, 34-ü bürünc olmaqla, 55 ölkə arasında 4-cü yerdə qərarlaşdıq.

Cənab Ali Baş Komandan, açılış mərasimində Azərbaycan nümayəndə heyəti stadiondan keçərkən, Bayrağımız açılarkən 42 minlik insanın coşqu ilə bayrağımızı alqışlaması qardaş ölkənin qalib ölkənin bayrağını alqışlamağı idi. Bu hissləri bizə yaşatdığınız üçün Sizə təşəkkürümüzü bildiririk.

Nümayəndə heyətimiz böyük olduğu üçün bizə ayrıca bina ayrılmışdı. Ancaq o da kifayət etməmişdi və digər binanın bir hissəsi də bizə ayrılmışdı. Bizim idmançılar 150-dən çox otaqda yerləşmişdilər. Çox xoş haldır ki, təhvil-təslim vaxtı bizim 150 otaqdan heç birində ən kiçik problem belə olmamışdır. Bu isə bir daha bizim idmançıların intizamının göstəricisidir. Fürsətdən istifadə edib onlara da təşəkkürümüzü bildirmək istəyirik.

Çox sağ olun, cənab Prezident. Təşəkkürümü bildirirəm.

* * *

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

* * *

Üzgüçülük üzrə milli komandanın baş məşqçisi **Rəşad Əbdürrəhmanov** dedi:

- Hörmətli Prezident.

Hörmətli Mehriban xanım.

Mən də İslam oyunlarında iştirak edən bütün məşqçilər adından Sizə dərin təşəkkürümü bildirirəm. Çünki bilirsiniz ki, idmançı medal qazananda bütün alqışlar idmançının, hər hansı bir uğursuzluq olanda isə ən böyük günahkar məşqçilər olurlar. Amma buna baxmayaraq, biz öz işimizi həmişə vüqarla, qürurla davam etdiririk. Çox sağ olun ki, bizə belə şərait yaratmısınız. Çünki məşqçinin ən böyük şəraiti onun idman bazasıdır.

Siz gənclərlə görüş keçirəndə Sizə sual verildi ki, hansı idmanı xoşlayırsınız? Siz üzgüçülük dediniz. Mən də indi ən dəbdə olan bir idman növünün nümayəndəsi kimi demək istəyirəm ki, 2015-ci ildə keçirilən Avropa oyunlarında bizim üçün yaratdığınız böyük Su İdman Sarayına görə Sizə şəxsən təşəkkürümü bildirirəm. Bütün üzgüçü idmançılar ailəsi adından Sizə təşəkkür edirəm. Çünki həmin o idman bazasının sayəsində artıq Azərbaycanda üzgüçülük, doğrudan da, sürətlə inkişaf etmişdir. Bunun göstəricisi olaraq 2017-ci ildə biz dəvət edilmiş idmançılarla medal qazanmışdıqsa, 2015-ci ildə tikilmiş hovuza ilk qədəmlərini qoyan idmançılar - öz idmançılarımız artıq bu yarışda uğurlarımıza öz töhfələrini verdilər. İyun ayında Rumıniyanın Buxarest şəhərində keçirilən Avropa çempionatında bizim idmançımız Ramil Vəlizadə bürünc mükafata layiq görüldü. Bu da tarixi bir hadisədir. Bütün bunlara görə öz adımdan və məşqçilər adından Sizə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun.

* * *

Voleybol üzrə beynəlxalq dərəcəli hakim **Eldar Zülfüqarov** dedi:

- Cənab Prezident.

Hörmətli Mehriban xanım.

Bizimlə görüşünüz biz hakimlərə Sizin ən dəyərli hədiyyənizdir. Sizin yaratdığınız şərait sayəsində bu gün bizim beynəlxalq dərəcəli hakimlərimiz Azərbaycan Respublikasını beynəlxalq arenada, Avropa, dünya çempionatlarında, Olimpiya oyunlarında, həmçinin müxtəlifmiqyaslı yarışlarda layiqincə təmsil edirlər. Eyni zamanda gənc nəsildən ölkəmizi beynəlxalq miqyasda təmsil edən hakimlər yetişdiririk. Bütün bu nailiyyətlərin qazanılmasına səbəb Sizin rəhbərliyinizlə biz idmançılara, məşqçilərə, hakimlərə, bütün idman ictimaiyyətinə göstərilən diqqət və qayğıdır. Mən bütün hakimlərin adından Sizə təşəkkürümü bildirmək istəyirəm.

Diqqətinizə görə çox sağ olun.

*Ardı 3-cü səh.*

# Qalib ölkənin qalib idmançıları

Əvvəli 2-ci səh.

İslamiadanın sərbəst güləş yarışlarının qızıl medalçısı **Hacı Əliyev** çıxış edərək dedi:

- Cənab Prezident, mən də öz adımdan və bütün idmançılar adından Sizi salamlayıram. Bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Bildiyiniz kimi, V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları uğurlu nəticə əldə etdilər. Bayaq qeyd etdiyiniz kimi, 29 qızıl, 36 gümüş və 34 bürünc medal qazandıq. Ümumilikdə isə biz 99 medal qazandıq. Mən bir güləşçi kimi qeyd etmək istərdim ki, güləşçilərimiz bu oyunlarda öz güclərini bir daha sübut etdilər. Beş il əvvəl Bakıda keçirilən islamiadada qazandığımız nəticəni, belə deyək ki, təkrarladıq və biz 23 medal əldə etdik. Bunlardan 8-i qızıl, 8-i gümüş və 7-si bürünc medal idi. Ümumilikdə sərbəst güləşçilərimiz ikinci, yunan-Roma və qadınlardan ibarət yığma komandalarımız isə birinci oldular.

Cənab Prezident, hər dəfə böyük yarışlardan gəldikdən sonra bizi qəbul etməyiniz, nəticələrimizlə yaxından maraqlanmağınız, doğrudan da, bizi sevindirir. Bu, bizə böyük stimul verir. Biz bu diqqət və qayğı nəticəsində hər zaman çalışırıq ki, uğurlar əldə edək.

Bizi qarşıda böyük yarışlar gözləyir. Ən böyük hədəfimiz isə bayaq dediyiniz kimi, Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarıdır. Mənə elə gəlir ki, idmançılarımız oyunlara yaxşı hazırlaşırlar və inşallah, yaxşı nəticələr göstərəcəklər.

Cənab Prezident, gələcək işlərinizdə Sizə uğurlar arzulayıram. Allahdan Sizə və ailənizə cansağlığı diləyirəm. İnşallah, hər zaman Azərbaycan belə böyük qələbələr qazanar. Diqqətinizə görə təşəkkür edirəm.



* * *

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

* * *

Bədii gimnastika üzrə milli komandamızın üzvü, islamiadanın qızıl və gümüş medalçısı **Güllü Ağalarzadə** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli Mehriban xanım.

Sizi və bütün iştirakçıları salamlayıram. Mən bədii gimnastika üzrə milli komandanın üzvüyəm. Bildiyiniz kimi, V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan Gimnastika Federasiyasının idmançıları 8 qızıl, 7 gümüş və 2 bürünc medal qazanmışlar. Biz bu qələbəyə görə çox sevinirik. Əlbəttə ki, əldə etdiyimiz bütün bu nailiyyətlər, cənab Prezident, Sizin və Mehriban xanımın dəstəyi sayəsindədir. Bu dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Onu da qeyd etmək istərdim ki, avqustun 26-sı Mehriban xanımın ad günüdür. Mən bütün idmançılar adından Mehriban xanımı ürəkdən təbrik edirəm.

Vurğulamaq istəyirəm ki, V İslam Həmrəyliyi Oyunlarında məşqçilər, hakimlər, tibb işçiləri, həmçinin idmançılar - hər kəs bir-birinə daim dəstək oldular. Müstəqil bir ölkənin idmançıları kimi, cənab Prezident, Sizin yürütdüyünüz düzgün siyasət bizi daim qələbə qazanmağa ruhlandırdı. Əlbəttə, ümid edirəm ki, gələn İslam Həmrəyliyi Oyunlarında məhz bu yolla gedərək, daha gözəl qələbələrə imza atacağıq. Biz fəxr edirik ki, belə ölkənin vətəndaşlarıyıq. Çox sağ olun.

* * *

**Prezident İlham ƏLİYEV:** Sağ olun, əziz dostlar, əziz idmançılar, idman mütəxəssisləri. Bir daha sizi ürəkdən təbrik edirəm və yeni qələbələrə doğru irəli!

* * *

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Hacıyev Niyazi Xanbaba oğlu - general-leytenant

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Orucov Xanbala Tubail oğlu - general-mayor

**"Vətən uğrunda" medalı ilə**

Səfərov İdris Məmməd oğlu - general-mayor
Abdullayev Ruslan Ağasalah oğlu - polkovnik
Mayılov Şahin Səfi oğlu - polkovnik
Quliyev Elbrus Cahangir oğlu - polkovnik
Quliyev Qalib Cəmil oğlu - polkovnik
Bağırov Üzeyir Cahangir oğlu - polkovnik-leytenant
Əliyev Vüsal Bünyabün oğlu - baş leytenant

**"İgidliyə görə" medalı ilə**

Xudiyev Aydın Qurban oğlu - polkovnik
Əsədov Mircavad Ağamir oğlu - polkovnik-leytenant
Rəhimov Qəhrəman Sədrəddin oğlu - polkovnik-leytenant
Əliələkbərov Mirsahib Mirsəfər oğlu - mayor
Məmmədov Ramil Ramiz oğlu - mayor
Tağıyev Elmar Elman oğlu - mayor
Musayev Elçin Mirzağa oğlu - kapitan
Məhərrəmov Beybala Zamir oğlu - baş leytenant

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Eyyubov Roman İslam oğlu - polkovnik
Əlicanlı Narid Eldar oğlu - polkovnik
Əliyev Aydın Abbas oğlu - polkovnik
Fətullayev İntiqam Davud oğlu - polkovnik
Pənahov Əli Həsən oğlu - polkovnik
Dadaşov Naib Neymət oğlu - polkovnik-leytenant
Əsgərov Fərid Qeys oğlu - polkovnik-leytenant
İsayeva Günay Zakir qızı - polkovnik-leytenant
Mikayılov Vüqar Mahmud oğlu - polkovnik-leytenant
Cəbrayılov Elman Talıb oğlu - mayor
İsmayılov Emin Allahverən oğlu - mayor
Lətifov Seymur İkram oğlu - mayor
Məmmədov Mübarək Əli oğlu - mayor
Orucov Elçin Ziyəddin oğlu - mayor
Paşayeva Könül Çırağqulu qızı - mayor
Rüstəmova Gilə Vidadi qızı - mayor
Şiriyev Rauf Hacıhəsən oğlu - mayor
Əliyev Ramil Sübhan oğlu - kapitan
İbrahimov Tural Cəbrayıl oğlu - kapitan
Məhərrəmov Yunis Məhəmməd oğlu - kapitan
Orucov Nahid Nizami oğlu - kapitan
Ağayeva Aygün Vaqif qızı - tibb xidməti kapitanı
İsmayılov Emin Elman oğlu - tibb xidməti baş leytenantı
Əliyev Ceyhun Kifayət oğlu - baş leytenant
İsrafilzadə Əlvan Kamran oğlu - baş leytenant
Qasımov Samir Dünyamalı oğlu - baş leytenant
Vəliyev Musa Valeh oğlu - baş leytenant
Məmmədova Gülnarə Arif qızı - baş gizir
İmanova Fərəh Həbibulla qızı - gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 avqust 2022-ci il*

## 2022-ci ildə Qətər Dövlətində təşkil ediləcək Futbol üzrə Dünya Çempionatının keçirildiyi tarixlərdə çempionatla bağlı Qətər Dövlətinə səfəri çərçivəsində Azərbaycan Respublikasına gəlmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, 2022-ci ildə Qətər Dövlətində təşkil ediləcək Futbol üzrə Dünya Çempionatının (2022 FİFA Dünya Kuboku) keçirildiyi tarixlərdə çempionatla bağlı Qətər Dövlətinə səfəri çərçivəsində Azərbaycan Respublikasına gəlmək istəyən və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2022-ci il noyabrın 20-dən dekabrın 20-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. 2022 FİFA Dünya Kubokunun beynəlxalq təşkilatçıları olan "Q22" Şirkətinin və Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının (FİFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;

2.2. futbol komandaları 2022 FİFA Dünya Kubokunda iştirak edən ölkələrin vətəndaşları və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün oyuna bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. Bu Sərəncamın 1-ci hissəsində müəyyən edilən şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Q22" Şirkətinə, Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasına (FİFA) və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. bu Sərəncamın 1-ci hissəsində müəyyən edilən şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin beynəlxalq hava limanlarında "ASAN viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti bu Sərəncamın 1-ci hissəsində müəyyən edilən şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə məlumat versin.

5. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi 2022 FİFA Dünya Kubokunun təşkili və keçirilməsi ilə bağlı Qətər Dövlətinə səfər edəcək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına qısamüddətli turizm səfərlərinin təşviq edilməsi ilə əlaqədar ölkə xaricində marketinq kampaniyalarının təşkilini, aidiyyəti strukturlarla əlaqələrin qurulmasını və müvafiq tədbirlərin keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 avqust 2022-ci il*

## E.Ə.Zeynalova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Polkovnik Elşən Əsgər oğlu Zeynalova general-mayor ali hərbi rütbəsi verilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 avqust 2022-ci il*

## Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları, onların məşqçiləri və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları, onların məşqçiləri və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 10,0 (on) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi:

2.1. idmançılar arasında rəqabətin səviyyəsi, yarışların çətinlik dərəcəsi, ən yüksək nəticələrə görə medalların sayı, fərdi və ya komanda yarışlarında iştirakı nəzərə alınmaqla idmançıların, onların məşqçiləri və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünə, habelə vəsaitin idmançılara hissə-hissə ödənilməsinə dair qaydanı on beş gün müddətində hazırlayıb təsdiq etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsi ilə hər bir idmançı üçün ayrılmış vəsaitin həmin Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş qaydaya uyğun olaraq ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 87; 2015, № 8, maddə 910; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 377, № 10, maddə 1778; 2018, № 10, maddə 2001; 2019, № 5, maddə 857; 2020, № 6, maddə 707; 2021, № 5, maddə 450; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 iyul tarixli 1766 nömrəli və 2 avqust tarixli 1784 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin 4.5-2-ci bəndinə "yoxlama başa çatanadək)" sözlərindən sonra ", habelə səyyar vergi yoxlaması zamanı yoxlamanın əhatə etdiyi dövr Azərbaycan Respublikası Vergi Məcəlləsinin 36.3-1-ci maddəsinə uyğun olaraq artırıldıqda, bu barədə qərarın qəbul edildiyi vaxtdan 1 iş günü müddətində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 avqust 2022-ci il*

## Baş nazir Əli Əsədov Türkiyənin vitse-prezidenti Fuat Oktaya başsağlığı verib



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktaya başsağlığı məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov Türkiyənin Qaziantep və Mardin vilayətlərində ağır yol-nəqliyyat hadisələri nəticəsində çoxsaylı insan ölümü və yaralananlar barədə xəbərdən kədərləndiyini bildirib. Bu ağır faciə ilə əlaqədar Türkiyənin vitse-prezidenti F.Oktaya, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, xəsarət alanların tezliklə sağalmasını arzulayıb.

## Baş nazir Əli Əsədov qırğızıstanlı həmkarına başsağlığı verib

Baş nazir Əli Əsədov Qırğız Respublikasının Nazirlər Kabinetinin sədri Akılbek Japarova başsağlığı məktubu göndərib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir məktubda Rusiyanın Ulyanovsk vilayətində baş verən yol-nəqliyyat hadisəsi nəticəsində Qırğız Respublikası vətəndaşlarının həlak olmasına və yaralanmasına görə dərindən sarsıldığını bildirib.

Məktubda Qırğızıstan Nazirlər Kabinetinin sədrinə, habelə həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verilib.

## Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyədə baş verən nəqliyyat qəzası ilə bağlı başsağlığı verib



Avqustun 21-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyədə Qaziantep-Nizip yolunda baş vermiş nəqliyyat qəzası ilə bağlı tviter hesabında başsağlığı ünvanlayıb.

Milli Məclisin Sədri qardaş Türkiyə xalqına, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

Sahibə Qafarova həlak olanlara Allahdan rəhmət, yaralananlara isə şəfa diləklərini çatdırıb.

***"Azərbaycan"***

## Hərbi hissələrdə görüşlər keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin əməkdaşları Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçular və mülki işçilərlə hərbi hissələrdə görüşlər keçirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşlərdə Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində və digər struktur bölmələrdə xidmət edən qadın hərbi qulluqçuların və mülki işlərdə çalışan qadınların əməyinin Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən daim yüksək qiymətləndirildiyi qeyd olunub.

Sonda qadın hərbi qulluqçuların və mülki işçilərin fikirləri dinlənilib, maraq doğuran suallar cavablandırılıb.

## "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 30-cu ildönümü 5-ci sərhəd zastavası üçün yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi ilə qeyd edilib





Avqustun 22-də - "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 30-cu ildönümündə 5-ci sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport verib.

Bildirilib ki, 5-ci sərhəd zastavası 1932-ci ildən fəaliyyət göstərir və xidmət sahəsi 9 kilometrdir. Yeni xidmət və yaşayış kompleksinin inşasına 2021-ci ilin sentyabr ayında başlanılıb. İkimərtəbəli qərargah binasında əsgərlər üçün 40, subay zabitlər üçün 8 yerlik yataqxana, sinif, silah, rabitə və 3 iş otağı, 28 yerlik yeməkxana, ərzaq və tərəvəz anbarları, qurutma otağı və sığınacaq yerləşir. Ərazidəki yardımçı binada camaşırxana, mərkəzi qazanxana, 2 avtomobil saxlancı, əşya, yanacaq-sürtkü materialları və silah anbarları vardır.

Zastavada 12 sabit və 3 idarəolunan kameralı videomüşahidə sistemi, İP telefon, müşahidə qülləsində 2 ədəd 1000 metr radiuslu projektor, xidməti ərazidə 9000 metr məsafədə mühəndis-texniki çəpər və işarəverici qurğu quraşdırılıb, sərhəd yolları yenidən çəkilib və çınqıl örtüyü ilə bərkidilib. 4 müşahidə qülləsi, 1 isinmə məntəqəsi və 2 körpü əsaslı təmir olunub.

Ali Məclisin Sədri sərhədçi ailələrini yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə təbrik edib, onlara rahat həyat arzulayıb.

Sərhədçi ailələri adından minnətdarlıq edən Əminə Əhmədova deyib: "Sərhədçi ailələrinə göstərilən yüksək qayğı sayəsində ailə-məişət şəraitimiz xeyli yaxşılaşdırılıb. Bu gün yeni yaşayış binası istifadəmizə verilir. Görülən işlər, yaradılan şərait rahat yaşayışımızı təmin edir".

Ali Məclisin Sədri sərhədçi uşaqlarına hədiyyələr təqdim edib, onlardan Xavər Həsənli Ulu Öndər Heydər Əliyevə həsr olunmuş şeir söyləyib.

Ali Məclisin Sədri mənzillərdə yaradılan şəraitlə tanış olub. Bildirilib ki, hərbi qulluqçuların ailələri üçün nəzərdə tutulmuş 2 mərtəbəli yaşayış binası hər biri 2 otaqlı olmaqla, 8 mənzildən ibarətdir. Mənzillər mebel dəstləri, televizor, soyuducu, paltaryuyan və mərkəzləşmiş istilik sistemi ilə təmin olunub. Mənzillə təmin olunan ailələrə meyvə, tərəvəz və ərzaq payları verilib.

Sonra şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərhədçiləri salamlayıb, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının 30-cu ildönümü və 5-ci sərhəd zastavası üçün yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə diviziyanın şəxsi heyətini və sərhədçi ailələrini təbrik edib, gələcək xidmətdə uğurlar arzulayıb.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev diviziyanın yaradılmasının 30-cu ildönümündə 5-ci sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsində iştirak etdiyinə görə şəxsi heyət adından Ali Məclisin Sədrinə minnətdarlıq edib, göstərilən qayğıdan və yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da muxtar respublikada sərhədlərimizin etibarlı mühafizəsini təmin edəcəklərinə söz verib.

Şəxsi heyət "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirib.

Əsgər Təbriz Fərəcli minnətdarlıq edərək deyib: "Yaradılan şəraitin qarşılığında biz də Vətən sərhədlərini göz bəbəyimiz kimi qoruyacaq, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələcək, xidmətimizlə göstərilən etimadı doğruldacağıq".

Ali Məclisin Sədri sərhədçilərlə xatirə şəkli çəkdirib, onlarla səmimi söhbət edib.

Zastavada sıra meydanı, voleybol və futbol meydançası, idman və ləpirçilik şəhərciyi, atəş, mühəndis hazırlığı, xidməti heyvanların təlim yeri, tək əsgərin nəzarət zolağı olan təlim şəhərciyi yaradılıb. Həmçinin burada yeraltı sığınacaq və müdafiə səngərləri, istirahət və uşaq əyləncə yerləri, nəzarət-buraxılış məntəqəsi, avtomobillərin yuyulması yeri, helikopter meydançası, 63 kilovatlıq transformator və 30 kilovatlıq elektrik generatoru qurulub. 6 hektar ərazidə abadlıq işləri aparılıb, 2 subartezian quyusu qazılaraq 3 nasos quraşdırılıb, 2,5 hektar sahədə yaşıllıq salınıb.

Ali Məclisin Sədri yaradılan şəraitə uyğun xidmətin təşkili, ərazidə meyvə ağaclarının artırılması barədə müvafiq tapşırıqlar verib.

Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına təhvil verilib.

# Qubadlı-Eyvazlı avtomobil yolu boyunca genişmiqyaslı tikinti işləri davam etdirilir







Dövlət başçısının tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial - iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri də Qubadlı-Eyvazlı avtomobil yoludur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, 28,5 kilometr uzunluğa malik Qubadlı - Eyvazlı avtomobil yolu 2 zolaqlı olmaqla, IV texniki dərəcəyə uyğun olaraq inşa edilir. Qubadlı rayonunda çətin relyefə malik ərazidən keçərək Eyvazlı kəndinə gedən avtomobil yolu boyunca genişmiqyaslı tikinti işləri davam etdirilir:

- 0-5-ci kilometrdə yol yatağının tikintisi işləri aparılır;
- 5-6-cı kilometrdə yol yatağının tikintisi yekunlaşıb;
- 6-14-cü kilometrdə yol yamaclarının qırıcı üsulu ilə layihə səviyyəsinə gətirilməsi işləri icra olunur;
- 14-15-ci kilometrdə yol yatağının tikintisi işləri yekunlaşmaq üzrədir;
- 15-20-ci kilometrdə yol yamaclarının layihə səviyyəsinə gətirilməsi üçün tikinti işləri davam edir;
- 20,9-21-ci kilometrdə yol yatağının tikinti işləri son mərhələdə olmaqla aparılır;
- 21-22-ci kilometrlik hissəsində yol yatağının profilə salınması və dolğu işləri son mərhələ üzrə icra olunur;
- 23-25-ci kilometrlik hissədə yol yatağının tikintisi artıq yekunlaşıb;
- 27-28-ci kilometrlik hissədə isə dolğu işləri və yeni yol yatağının inşası işləri həyata keçirilir;
- 28,5-ci kilometrlik hissədə yararsız qruntun və torpaq yatağının genişləndirilməsi üçün bitki qatının çıxarılması, qazma, əks-dolğu, dağ yamaclarının kəsilməsi, dağlarda qırıcı üsulu ilə yol yatağının layihə səviyyəsinə gətirilməsi və tikintisi icra edilir.

Yeni inşa olunan yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin və altkeçidlərin, həmçinin avtomobil körpülərinin inşası aparılır:

- 24-24,44 kilometrdə yerləşən düzbucaqlı su keçidinin ilkin təməl beton işləri,
- 0-0,5 kilometrdə suötürücü beton borunun tikintisi aparılır;
- 2,5-ci kilometrdə inşa olunan 122,4 metr uzunluğa malik 4 aşırımlı körpüdə svay işləri yekunlaşıb, qazma və betonlama işləri icra olunub;
- 21-ci kilometrdə tikilən 66 metr uzunluğa malik 2 aşırımlı avtomobil körpüsündə svay betonlama işləri aparılır. Körpünün A1, A2 dayaqlarında tikinti işləri yekunlaşmaq üzrədir, P2 dayağının təməlində betonlama işləri icra olunur.

Xüsusi texnikalardan istifadə olunmaqla görülən "İnşaat Norma və Qaydaları"na uyğun olaraq, işlərin zamanında və keyfiyyətlə yerinə yetirilməsi üçün tikinti ərazisinə lazımi sayda texnika və canlı qüvvə cəlb edilib.

Tikintinin qısa müddət ərzində icra olunmasını təmin etmək məqsədilə ərazidə düşərgə inşa edilib. Düşərgədə asfalt-beton zavodu, beton zavodu və qum-çınqıl zavodu, maşın-mexanizmlərin saxlanması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulub.

Qubadlı-Eyvazlı avtomobil yolu Qubadlı rayonunun Mahmudlu, Xıdırlı, Müskanlı, Məlikəhmədli, Qudanlı, Davudlu, Eyvazlı kəndlərinin ərazisindən keçir.

## "Snayper həddi" müsabiqəsində növbəti çalışmalar icra olunub





"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində keçirilən "Snayper həddi" müsabiqəsində iştirak edən komandalar ikinci mərhələnin növbəti çalışmalarını yerinə yetiriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, çalışmanın şərtlərinə uyğun olaraq, snayper cütlükləri əvvəlcə 25 metrədək məsafədə yerləşən hədəflərə tapançadan, daha sonra 800 metr məsafədə yerləşən xüsusi hədəflərə snayper tüfənglərindən atəş açıblar.

İran İslam Respublikasının Yəzd şəhərində keçirilən müsabiqədə növbəti çalışma zamanı hərbi qulluqçularımız 200-300 metr məsafədə yerləşən üç hədəfi məhv edərək qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəliblər.

## Hərbi dənizçilərimiz növbəti mərhələni uğurla başa vurublar





"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində ölkəmizdə təşkil olunan "Dəniz kuboku" müsabiqəsində iştirak edən komandalar "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə mərhələsində "Xilasetmə vasitələrinin istifadəsi" tapşırığını yerinə yetiriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu mərhələdə çalışmanın şərtlərinə uyğun olaraq hər komanda beş nəfərdən ibarət olmaqla xüsusi üzgüçülük geyimlərini geyinərək 25 metr məsafəni qət edib, xilasedici salı avarlar vasitəsilə təyin olunan nöqtəyə gətiriblər.

Hakimlər komissiyasının qərarı ilə Azərbaycan və Rusiya komandaları eyni xalla birinci, İran komandası ikinci, Qazaxıstan komandası isə bu mərhələni üçüncü yerdə başa vurub.

# İŞİMİZ, GÜZƏRANIMIZ



# "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi

## Bu gün qaz ixracı üçün resurs bazamız "Şahdəniz" yatağıdır

"Biz Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artıracağıq. Bu memorandum vasitəsilə biz "Cənub qaz dəhlizi"nin genişləndirilməsi ilə bağlı üzərimizə öhdəlik götürürük. Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq".

Bu sözlər Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayenə məxsusdur. O, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə bağlı bəyanatında belə deyib.

Qaz ixracının artırılması bir sıra şərtlərlə bağlıdır ki, bunların sırasında hasilatın çoxalması önəmli yer tutur. Hazırda Xəzərin Azərbaycan sektorunda bir sıra ümid verən yataqlarda iş gedir və yaxın gələcəkdə onlardan hasilata başlanacağı gözlənilir. Prezident İlham Əliyev cari ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bu barədə demişdir: "Perspektivli yataqlardan çıxarılacaq qazı həm daxili tələbatı ödəmək üçün, eyni zamanda ixrac üçün də nəzərdə tutmuşuq. Hələ ki, bizim ixrac resurs bazamız "Şahdəniz" yatağıdır. Amma yaxın gələcəkdə "Abşeron", "Şəfəq", "Asiman", "Ümid-Babək" və "Azəri-Çıraq-Günəşli"nin dərin qaz adlandırılan yataqlarından qaz hasilatı gözlənilir. Yəni çox böyük resursdur və bütün sadaladığım layihələr üzrə fəal işlər gedir".

Beləliklə, "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyi "Şahdəniz"dir. Bəs "Şahdəniz" artan tələbatları necə qarşılayır? Ümumiyyətlə, layihədə hansı işlər gedir?

"Şahdəniz"in tərəfdaşlarını xatırladaq: bp (operator - 29,99 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz), SOCAR (14,35 faiz), NİKO (10 faiz), "Cənub qaz dəhlizi" (6,67 faiz). Əməliyyatçı şirkətin bu ilin birinci yarısına aid açıqlamasında bildirilir ki, yataqdan Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə və Avropadakı alıcılara qaz çatdırılması davam edir. İlin ilk altı ayında yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 13 milyard standart kubmetr qaz və 2 milyon ton (18 milyon bareldən artıq) kondensat hasil olunub. "Şahdəniz"in mövcud qurğularının hasilat gücü hazırda gündə təxminən 70 milyon (ildə 25 milyarddan artıq) standart kubmetrdir.

"Şahdəniz"in işlənməsinin ikinci mərhələsi çərçivəsində aparılan tikinti işləri qərb-cənub cinahından bu ilin üçüncü rübünə planlaşdırılan hasilatın başlanması qrafikinə uyğun irəliləyib. "Xankəndi" sualtı tikinti gəmisi həmin cinahda əsas sualtı quraşdırma işlərini təhlükəsiz şəkildə başa çatdırıb. Bu işlərə sualtı boru xətlərinin, hasilat üçün fontan armaturlarının, manifoldlar və idarəetmə sistemləri üçün sualtı elastik kabellərin quraşdırılması daxildir. Sualtı xətlərin bağlanması üçün dalğıc işləri də əsasən yekunlaşıb.

Qərb-cənub cinahından hasilatın başlanması layihəsi çərçivəsində "Şahdəniz Bravo" platformasının üzərində aparılan işlər də irəliləyib və hazırda tamamlanmaq üzrədir. Layihənin hər iki hissəsində - həm platformanın üstündə, həm də sualtı hissədə ilkin istismar sınaqları və yoxlama fəaliyyətləri qrafikə uyğun gedir. İlk dərinsulu cinah olan şərq-şimal cinahının keçən il işə salınmasından əldə edilmiş ən yaxşı təcrübə və bilgilər qərb-cənub cinahının istismara verilməsi üçün aparılan bütün tikinti işlərində geniş tətbiq olunur. İkinci rübdə "Şahdəniz Alfa" platformasından quyularda bir sıra işlər aparılıb, sonra isə platformanın qazma qurğusunda profilaktik işlər davam edib.

Qeyd edək ki, hazırda "Şahdəniz" layihəsinin illik iş proqramının bir hissəsi olaraq "Şahdəniz Alfa" platformasında və Səngəçal terminalının "Şahdəniz-1" qurğularında planlaşdırılmış profilaktik işlər gedir. Bu proqram həyata keçirilərkən "Şahdəniz-2" qurğuları fəaliyyətdə olacaq, regionun və Avropanın bazarlarına qaz təchizatı davam edəcək.

"İstiqlal" və "Maersk Explorer" qazma qurğuları indiyədək "Şahdəniz-2"-nin hasilatı və onun sonrakı tədrici artımı üçün ümumilikdə 21 quyu qazıb və bunlardan 19-unda işlər sona çatıb. Yatağın şimal cinahında 5, qərb cinahında 4, şərq-cənub cinahında 4, qərb-cənub cinahında 4, şərq-şimal cinahında 2 quyu tamamlanıb. Qərb-cənub cinahında bir quyu və şərq-şimal cinahında bir quyu tam dərinliyədək qazılıb və konservasiya olunub.

"Şahdəniz" qazı Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə Gürcüstana, Bakı-Tbilisi-Ərzurum kəməri və TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) ilə Türkiyəyə nəql edilir. TAP (Trans-Adriatik Qaz Boru Kəməri) isə "Şahdəniz"in mavi yanacağını Avropaya çatdırır. Azərbaycan qazına tələbat getdikcə artır və "Şahdəniz" də bunun öhdəsindən layiqincə gəlir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İsmayıllıda 5 min tondan çox tərəvəz toplanıb

İsmayıllı rayonunda tərəvəz məhsulları istehsalı davam edir. Ötən ilin eyni dövründə olduğundan çox məhsul yığılıb.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, cari ilin məhsulu üçün İsmayıllıda 745,8 hektar sahədə tərəvəz bitkiləri əkilib. Torpaq mülkiyyətçiləri indiyədək sahələrdən 5283,4 ton məhsul yığıblar ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 50 ton çoxdur.

Hər il olduğu kimi, bu il də daha çox pomidor və xiyar əkilib. Xiyar sahələri 190, pomidor sahələri isə 155 hektardır. Ümumi tərəvəz əkinlərinin 46 faizini məhz bu bitkilər təşkil edir. Yığılan pomidor və xiyar, eləcə də kartof, lobya, badımcan və digər məhsullar birbaşa yerli bazarlara çıxarılır.

## Salyanda altı ayda əhaliyə 32,7 faiz çox ödənişli xidmətlər göstərilib

Salyan rayonunda 2022-ci ilin yanvar-iyun ayları ərzində əhaliyə 36 milyon 81 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32,7 faiz çox ödənişli xidmətlər göstərilib.

Rayon statistika idarəsindən verilən məlumata görə, ümumi ödənişli xidmətin 12 milyon 228 min manatı (33,9 faizi) hüquqi şəxslər, 23 milyon 853 min manatı (66,1 faizi) hüquqi şəxs yaratmadan ödənişli xidmətlər göstərən fiziki şəxslər tərəfindən həyata keçirilib.

Əhaliyə göstərilən ödənişli xidmətlərin 10,2 faizini və ya 3 milyon 673,9 min manat məişət xidmətləri təşkil edib. Məişət xidmətlərinin 18,2 min manatı (0,5 faizi) hüquqi şəxslərin, 3 milyon 655,7 min manatı (99,5 faizi) hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fiziki şəxslərin payına düşüb.

2022-ci ilin birinci yarısında ictimai iaşə xidmətinin həcmi 2021-ci ilin eyni dövrü ilə müqayisədə 66,7 faiz artaraq 2 milyon 801,3 min manat olub. Rayon üzrə ictimai iaşə xidmətinin həcminin hamısı hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fiziki şəxslərin payına düşüb.

## Əməkhaqqı fondu daha 16 faiz artıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumatda bildirilir ki, 2022-ci ilin yanvar-iyul aylarında Azərbaycanda əməkhaqqı fondu daha 16 faiz artıb.

Bu artımın əsasında qeyri-leqal məşğulluğun qarşısının alınması üçün görülən kompleks tədbirlər, ardıcıl əməkhaqqı islahatları, əmək müqavilələrinin sayının daimi artması dayanır.

Ümumilikdə aparılan islahatlar nəticəsində son 4 ildə illik əməkhaqqı fondu 2,2 dəfə və ya 8 milyard manat artıb.

## Lizinq şirkətlərinin təmsilçiləri ilə müzakirələr aparılıb

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarların vergi qanunvericiliyinin tətbiqi ilə bağlı qarşılaşdıqları çətinlik və təkliflərinin öyrənilməsi istiqamətində qarşılıqlı əməkdaşlığı və görüşləri davam etdirir.

Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsi tərəfindən təşkil edilmiş növbəti belə görüş Azərbaycan Respublikasının Mərkəzi Bankının nümayəndələrinin iştirakı və lizinq fəaliyyəti ilə məşğul olan şirkətlərlə onlayn formatda keçirilib.

Tədbirdə çıxış edən Vergi siyasəti baş idarəsinin rəisi Nicat İmanov görüşün əsas məqsədinin sahə üzrə çətinliklərin müəyyənləşdirilməsi və həlli istiqamətində görülməli işlərin müzakirəsi olduğunu bildirərək, iştirakçıları fəal müzakirəyə dəvət edib. Görüşdə lizinq şirkətləri tərəfindən səsləndirilən məsələlər, o cümlədən lizinq əməliyyatları üzrə ƏDV əvəzləşdirilməsi hüququnun istehlakçıya verilməsi, lizinq obyektinin idxalı zamanı ƏDV-nin tətbiqi məsələləri müzakirə edilib, iştirakçıların vergi qanunvericiliyinin tətbiqi ilə bağlı sualları cavablandırılıb.

Lizinq fəaliyyətinin gələcək inkişaf perspektivləri ilə bağlı Mərkəzi Bankın baş direktoru Gülər Paşayeva bildirib ki, müvafiq sahədə inkişafa nail olunması məqsədilə mövcud qanunvericilik müddəalarının təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Bu xüsusda sahə üzrə problemlərin fərqli platformada dinlənilməsi layihələrin hazırlanması prosesinə öz müsbət təsirini göstərəcək.

Dövlət-biznes əməkdaşlığının inkişaf etdirilməsi və vergitutma mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı sahibkarların rəy və təkliflərinin öyrənilməsi istiqamətində görüşlərin davam etdiriləcəyi iştirakçıların diqqətinə çatdırılıb.

## Dövlət xətti ilə kirayə verilən mənzillərin sayı 2 mini ötüb

İpoteka və Kredit Zəmanət Fondu dövlət xətti ilə zəmanət və subsidiyalar verilmiş kreditlərin məbləğini açıqlayıb.



Fondun məlumatına görə, zəmanət və subsidiyalar verilmiş kreditin məbləği 312 milyon 411 min manatdır. Kirayəçilərin istifadəsinə 2 min 74 yaşayış sahəsi verilib.

## Pambıqçılara aqrotexniki tədbirlərlə bağlı təlim keçirilib

Bərdə rayonunda fermerlər üçün "Pambıqda boy tənzimləyici hormonların tətbiqi, həmçinin məhsulun yığıma hazırlanması üçün defolyasiya və desikasiya aparılma qaydaları" mövzusunda təlim keçirilib.

Rayonun Yenidaşkənd kəndində fermer Ədalət Əliyevə məxsus pambıq tarlasında keçirilən təlimdə Aqrar Xidmətlər Agentliyinin Bərdə Regional Təlim Mərkəzinin əməkdaşları, fermerlər və aqrar mütəxəssislər iştirak ediblər. Təlimçilər qeyd ediblər ki, pambıq bitkisində 3-4 ədəd formalaşmış qoza, 15-17 ədəd simpodial budaq olduqda ucvurma aparılmalıdır. Ucvurma və yaxud boy tənzimləyici hormonların tətbiqi kolun formalaşmasına, bar orqanlarının toplanmasına və əmələ gəlməsinə təsir edən ən əsas tədbirlərdən biri sayılır. Ucvurma pambıq kollarına xüsusi forma verməklə, məhsulun maşınla yığılmasını asanlaşdırır.

Məhsulu itkisiz və qısa zamanda yığmaq üçün pambıq əkinləri defolyasiya və desikasiya edilməlidir. Yığımqabağı qozaların kütləvi açılmasını təmin etmək və yarpaqların yaşıl rəngdə tökülməsi üçün defolyasiya olunur. Defolyasiyanın səmərəliliyi işlənəcək preparatın təsir dərəcəsindən, bitkinin vəziyyətindən, aqrotexniki zəmindən, ətraf temperaturdan, torpaq və havanın nəmliyindən, torpağın münbitliyindən, qidalanma rejimindən və digər amillərdən asılıdır. Desikasiya prosesi isə bitkinin gövdə və yarpaqlarının birlikdə tam qurudulmasıdır.

Təlimin sonunda fermerləri maraqlandıran suallar ətraflı cavablandırılıb və onlara müvafiq tövsiyələr verilib.

# İşğaldan azad edilmiş ərazilərimiz də ərzaq təhlükəsizliyinə öz töhfəsini verəcək

**Bu gün Azərbaycan dünyada baş verən qlobal geriləmələrə baxmayaraq, sürətlə irəliləyir. Prezident İlham Əliyev böyük islahatları reallaşdırır, işğalçı Ermənistan siyasətçilərindən fərqli olaraq, Qafqaza sülhü təkidlə gətirən və onu qorumaq gücünə qadir olan yeganə lider olduğunu bir daha təsdiqlədi.**



Dünyada baş verən dərin böhranlara rəğmən Azərbaycan Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi üzrə hesabata əsasən, ardıcıl olaraq mövqeyini yaxşılaşdıran ölkələrin siyahısında yer alır. Dövlətimizin həyata keçirdiyi kompleks tədbirlər ərzaq təhlükəsizliyinin təminatı sahəsində ciddi nailiyyətlər əldə etməyə imkan yaratmışdır. COVID-19 pandemiyası zamanı və Rusiya-Ukrayna müharibəsi nəticəsində əhalisini ərzaqla təmin etməkdə problemlərlə üzləşən bir sıra dövlətlər meydana çıxmışdır. Azərbaycanda əhalinin bu problemləri ağrısız adlaması üçün ciddi addımlar atılır, vacib qərarlar qəbul edilir. Vaxtında görülən tədbirlər bu gün öz müsbət nəticələrini verir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 iyul tarixli "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" fərmanı da xüsusi qeyd olunmalıdır. Bu fərman ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsini və ərzaq təhlükəsizliyinin gücləndirilməsini hədəfləyir.

Azərbaycanın sülh səylərinə baxmayaraq, Ermənistan hələ də müharibə havasında iməkləyir. Bu isə erməni xalqına iztirablar gətirir. İrəvan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin İranşünaslıq kafedrasının müdiri Vardan Voskanyan yazır ki, ermənilərdən azad edilən 3 kəndin Azərbabaycana təslim olması qarşı tərəfə növbəti qələbə gününü təqdim etməkdir. Ermənilər kirimədən "müqəddəs erməni torpaqlarının" əldən getməsindən danışır, saxta qürurla yeni müharibələrdən dəm vururlar.

Azərbaycan, ümumiyyətlə, müharibələrə bağlanmır, yalnız sülh perspektivlərinin axtarışındadır. Bu gün qarşıya qoyulan əsas hədəflərdən biri ərzaq təhlükəsizliyinin işğaldan azad olunan ərazilərin hesabına daha da gücləndirilməsidir. Prezident İlham Əliyev bu ərazilərin 100 min hektara çatdırılmasını ölkənin aqrar sektorunun qarşısında bir hədəf kimi qoymuşdur.

Amma işğalçı dövlətdə təhlükəsizlik məsələləri erməni lətifələri ruhunda həllini tapır. Ermənistanda əkin sahələrinin heç yarısını becərə bilməyən ermənilər indi humanitar yardıma eyham vururlar. Britaniyanın məşhur Müharibə və Sülh Reportajı İnstitutunun (IWPR) saytında Ermənistanın ərzaq təhlükəsizliyinə təhdidlə bağlı məqamlar açıqlanıb. Qeyd olunur ki, 2020-ci ildə Ermənistanda əkin sahələrinin yarısı becərilməmişdi. 2020-ci ilin payızına qədər isə Qarabağ Ermənistana 100 min ton buğda verirdi ki, bu da Ermənistanın tələbatının 25-30 faizini təşkil edirdi. Həmçinin Qarabağ bölgəsinin torpaqları otlaq kimi istifadə olunurdu, tərəvəz və meyvələrdən, o cümlədən subtropik bitkilərdən böyük məhsul alınırdı və hətta ixrac olunurdu. 2019-cu ilə olan məlumata görə, ermənilər Qarabağda 11 min tona qədər üzüm yetişdirmişdilər. Yəni dəqiq məlum olur ki, öz torpaqlarından istifadə etməyiblər, lakin işğal altındakı Azərbaycan torpaqları erməni əhalisini dolandırmaq üçün güclü və əsaslı şəkildə istismar edilib.

İndi İrəvan reallıqlarla barışmasa da, sülhdə yaşamağa məcburdur. Amma Ermənistan baş verənləri dünyadakı geosiyasi və iqtisadi vəziyyətlə əlaqələndirməyə çalışır və eyni zamanda humanitar təşkilatların köməyinə ehtiyacı olduğuna eyhamlar vurur.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin ekspertləri bildirirlər ki, ölkəmizdə kənd təsərrüfatında məhsul istehsalının artmasına yönələn tədbirlərin həyata keçirilməsi qarşıdakı illərdə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə xidmət edəcək: "Qarabağda və Şərqi Zəngəzurda işğaldan azad edilən torpaqların əkin dövriyyəsinə cəlb edilməsi ərzaq təhlükəsizliyimizin təmin edilməsinə böyük töhfə verəcək və özünütəminetmə səviyyəsini də yaxşılaşdıracaq".

Ölkəmizdə kartof, meyvə, tərəvəz və bir sıra digər ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi yüksəkdir və daha böyük inkişaf mümkündür. Ancaq ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsi hələ ki, aşağıdır və ərzaqlıq buğda istehsalının artırılması aktuallıq daşıyır. Çünki tarixən xalqımızın istehlakında çörək mühüm yer tutub. Buna görə də ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi üçün mühüm qərarlar qəbul olunmuşdur. 2023-cü ildən başlayaraq 5 il müddətində ərzaqlıq buğdaya məhsul subsidiyası tətbiq ediləcək. Prezident artıq bu istiqamətdə yeni hədəfləri də müəyyənləşdirmişdir. Belə ki, 3-4 il ərzində ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin 80 faizə çatdırılması istiqamətində iş aparılacaq.

Ərzaq təhlükəsizliyi özündə 4 mühüm elementi birləşdirir: ərzağın mövcudluğu, ərzağa çıxış, keyfiyyətli ərzaqdan istifadə və ərzaqla davamlı təminat. Respublikamızda da davamlı olaraq bu 4 sütun üzrə ərzaq təhlükəsizliyi göstəriciləri yaxşılaşdırılır. 2021-ci ildə daxili bazarda strateji mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq məqsədilə Dövlət Ehtiyatları Agentliyi yaradıldı. Dövlət Taxıl Fondu bu agentliyin sərəncamına verildi. Ekspertlər qeyd edirlər ki, hazırda ölkəmizin buğda ehtiyatının dayanıqlığı üzərində iş aparılır. Digər tərəfdən bu il işğaldan azad olunan ərazilərdə 50 min hektarda taxıl əkilib. Növbəti illərdə 100 min hektarın əkin dövriyyəsinə cəlbi planlaşdırılır. Qarabağda və Şərqi Zəngəzurda bitkiçiliklə yanaşı, heyvandarlıq da inkişaf etdirilir. Bu isə o deməkdir ki, işğaldan azad olunmuş ərazilər də qarşıdakı illərdə Azərbaycanın ərzaq təhlükəsizliyinə öz töhfəsini verəcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Dövlətin hədəfi vətəndaşların rifahıdır





Bu gün Ağdamda həyat bulaq kimi çağlayır. Hər açılan səhərlə, doğan günəşlə yeni ümidlər, yeni arzular doğur. Otuz illik Qarabağ həsrəti sinəmizə çalın-çarpaz dağlar çəksə də, yurd nisgilinə dözməyən neçə ömür yarımçıq qalsa da, müdrik Prezidentimizin, Müzəffər Ali Baş Komandanın dəmir iradəsi, şanlı ordumuzun qəhrəmanlığı sonda bizi QƏLƏBƏYƏ qovuşdurdu.

Deyirlər sonda gülən qalib olar. Biz sonda güldük. Qələbə sevinci uzun illərin ağrı-acısını, qəmini-kədərini bir anın içində silib apardı ürəyimizdən. Qarabağ səmasındakı qara buludlar dağıldı. Otuz ilin nisgilindən sıyrılıb çıxan varlığımıza xoş ovqat hakim oldu. Uzun illər boyu viran qalmış Qarabağda ayrılıq nəğməsi oxuyan küləklər indi vüsalın sehrli nəğmələri ilə ruhumuza sığal çəkir.

Qarabağın zümrüd qaşı olan Ağdamda indi başqa abhava var. Adamların üzü gülür, gözlərindən fərəh süzülür. Sanki torpaq da rahat nəfəs alır. Hər yanda tikinti-quruculuq işləri gedir. Kimi ev tikir, şəhər salır, kimi yol çəkir, körpü inşa edir. Xalqın xoş günləri üçün dövlət səxavətini əsirgəmir. Evin ən rahatını, kəndin ən yaraşıqlısını, yolun, körpünün ən müasirini inşa etmək üçün dövlət vəsaiti artıqlaması ilə ayrılır. Bunu qayğı və diqqət kimi dəyərləndirən ağdamlıların da dövlətə, bu dövlətin sükanı arxasında dayanan qüdrətli sərkərdəyə məhəbbət və ehtiramı birə min artır.

Ağdamda, bu qaynar bölgədə dövlətin öz vətəndaşına, xüsusilə şəhid ailələrinə, Qarabağ müharibəsi qazilərinə isti və doğma münasibətini hər addımda görmək, hiss etmək olar. Bu günlərdə Qarabağ qazisi Tahir Rzayevlə görüşüb həmsöhbət olduq.

Tahir 1970-ci ildə Ağdam rayonunun Xıdırlı kəndində dünyaya göz açıb. Erməni silahlı birləşmələri əzəli Azərbaycan torpaqlarına qarşı ərazi iddialarına qalxanda, Qarabağda müharibənin ilk qığılcımları alovlananda yenicə həddi-buluğa çatan Tahir qardaşı Mahirlə birlikdə silaha sarılaraq doğma torpaqlarımızın müdafiəsi uğrunda müqəddəs savaşa atıldılar. Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin o zaman yeni yaratdığı yerli özünümüdafiə batalyonunda döyüşən Tahir Rzayev bir sıra uğurlu əməliyyatlarda qəhrəmanlıq göstərdi. Dəfələrlə ağır yaralandı, ikinci qrup əlil oldu. Ağdam rayonunun işğalından sonra Tahir Rzayev köçkün kimi Bakı şəhəri Yasamal rayonu Qanlı göl adlanan ərazidə müvəqqəti məskunlaşdı.

**TELEQRAM**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev cənablarına***

Çox hörmətli cənab Prezident!

Bizim ailənin minnətdarlığını Sizə çatdırmaq istəyirəm. Biz xoşbəxtik ki, Sizin böyük qayğınızdan bizə də yetərincə pay düşür. Məskunlaşdığımız Yasamal rayonunda 20.07.2022-ci il tarixdə baş vermiş yanğın nəticəsində mənzilimiz, ev əşyalarımız yanaraq yararsız hala düşdü. Əlimiz hər yerdən üzülmüşdü. Belə çətin məqamda Siz dadımıza çatdınız. Sizin qayğınız sayəsində bizə dəyən maddi və mənəvi zərər aradan qaldırıldı. Ailəmiz yenidən mənzil rahatlığına, firavan həyata qovuşdu.

Hər şey üçün sağ olun, əziz Prezident! Sizə və Sizin tapşırıqlarınızı məsuliyyətlə icra edən əlaqədar dövlət qurumlarına təşəkkür edirik.

*Hörmətlə:*

***Ağdam rayonunun Xıdırlı kəndindən məcburi köçkün,***
***Qarabağ qazisi, 2-ci qrup əlil Rzayev Tahir Yelmar oğlu***

Bir təsadüf nəticəsində 20 iyul 2022-ci ildə baş verən yanğın Tahirin ailəsini çıxılmaz duruma saldı. Mənzil də, mənzildəki avadanlıqlar da yanıb külə döndü. Tahir o günləri belə xatırlayır:

- Neyləyəcəyimi bilmirdim. Kimdən kömək istəyim, kimə üz tutum? Belə çətin məqamda Ağdam Rayon İcra Hakimiyyəti karımıza çatdı. Dövlət başçısından verilən tapşırıq əlaqədar qurumları hərəkətə gətirdi. Ağdam Rayon İcra Hakimiyyəti bizə lazımi kömək göstərdi. Teleqram vurub Prezident İlham Əliyevə minnətdarlığımı bildirdim. Öz vətəndaşına sahib çıxan bir ölkədə yaşamaq həqiqətən xoşbəxtlikdir.

Bu gün Ağdamda xalq-dövlət birliyinin təntənəsi məmnunluq doğurur. Dövlətin hədəfi xalqın firavan həyatı, xalqın iradəsi isə güclü və qüdrətli dövlətdir.

Ağdamlılar əmindirlər ki, sözü imzası qədər keçərli olan İlham Əliyev tezliklə Ağdamı modern üslubda tikib-quracaq və onlar da doğma yurdlarına qayıdaraq xoşbəxt və firavan yaşayacaqlar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Erməni vandallarının dağıtdıqları abidələr bərpa edilir

Ötən ay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlət başçısı demişdir: "Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının yeni baş katibi Azərbaycana səfər etmişdir. Biz bu təşkilatla çox fəal əməkdaşlıq edirik.

Əslində, biz bu təşkilatın çox fəal üzvüyük və bizim təşəbbüsümüzlə Azərbaycanda bir çox tədbirlər keçirilmişdir. Bu dəfə isə yeni seçilmiş baş katib eyni zamanda azad edilmiş torpaqlara səfər edib - Füzuliyə, Şuşaya. Əlbəttə ki, biz görüş zamanı Ermənistanın Azərbaycana qarşı, bizim mədəni irsimizə qarşı törətdiyi vandalizm haqqında danışmışıq. Bu gün azad edilmiş torpaqlara səfər edən hər bir insan, - istər Azərbaycan vətəndaşı olsun, istər xarici vətəndaş olsun, - erməni vəhşiliyinin təzahürlərini öz gözü ilə görür. Biz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində öz fəaliyyətimizi bundan sonra da uğurla davam etdirəcəyik".

Ölkəmizdə dini abidələrə, dini-mənəvi dəyərlərimizə dövlət səviyyəsində çox böyük diqqət və qayğı var. Azərbaycanda dövlət-din münasibətləri çox yüksək səviyyədə tənzimlənir. Bu münasibətlər başqa ölkələrə bir örnəkdir. Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən buna xüsusi diqqət göstərilir. Dövlət səviyyəsində işğaldan azad olunmuş ərazilərdə dini məbədlərimizin bərpasına da böyük önəm verilir. İşğaldan azad olunan ərazilərimizdə Heydər Əliyev Fondu dini və tarixi abidələrin bərpasını uğurla aparır.

Erməni vandalları işğal dövründə məscidlərimizi, ziyarətgahlarımızı, qəbirüstü abidələrimizi məhv ediblər. Yer adlarımızı, toponimlərimizi dəyişdirib, uydurma adlar qoyub, tariximizə iddia edə bilmədikləri məqamlarda isə barbarlığa əl ataraq onları vəhşicəsinə dağıdıblar. Tarixi saxtalaşdırmaqla özlərinə tarix yazmaq istəyən mənfur düşmənlərimiz milli sərvətimiz olan abidələri məhv etməklə, onların Azərbaycana məxsusluğunu itirməyə çalışıblar. Xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür saxtakarlığa əl atıblar.

Azərbaycanın multikultural və tolerant ölkə olmasına şahidlik edən hər kəs bilir ki, respublikamızda tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır. Təbii ki, bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. 30 ilə yaxın erməni əsirliyində qalmış Qarabağdakı dini abidələrimiz üçün intibah mərhələsi başlayıb.

Vətən müharibəsi ilə erməni talanına son qoyuldu. İyirmi yeddi ildən sonra Ağdam Cümə məscidində yenidən azan sədaları yüksəlməyə başlayıb. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva həmin məscidi ziyarət ediblər. Dövlət başçısı Məkkədən gətirdiyi müqəddəs "Qurani-Kərim"i məscidə hədiyyə edərkən demişdir: "Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq".

Azərbaycan Prezidenti dövlət başçılarının iştirakı ilə keçirilən beynəlxalq tədbirlərdə, habelə politoloqlar, jurnalistlər və ictimaiyyət nümayəndələri ilə görüşlərində dəfələrlə bildirib ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə bizləri sevə bilməz. İllərlə erməni işğalı altında olmuş rayon və kəndlərimizdəki məscidlər, ziyarətgahlar və digər dini abidələr pis günə salınıb. Misal üçün, XVIII əsrdə inşa edilmiş Qubadlıdakı Məmər kənd məscidi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra tamamilə dağıdılıb. Rayonun Dondarlı, Dəmirçilər kəndlərindəki məscidlər də həmin taleyi yaşamışdılar. Zəngilanda dağıdılmış məsciddə ermənilər donuz saxlayırdılar. İndi həmin məsciddə Heydər Əliyev Fondu bərpa işlərini həyata keçirir. Prezident bu məsciddə olarkən bildirmişdir ki, tezliklə bütün tarixi, mədəni, dini abidələrimiz bərpa olunaraq əvvəlki görkəminə qaytarılacaq. Xalqımızın min illərin o tayından adlayıb gələn tarixi kökləri qorunacaq, Azərbaycan xalqının zəngin xəzinəsi kimi gələcəyə ötürüləcək.

Ümumiyyətlə, respublikamızda bütün dinlərin məbədləri yüksək səviyyədə mühafizə olunur. Kilsələr, sinaqoqlar, erməni kilsələri, o cümlədən Bakının mərkəzindəki erməni kilsəsi dövlət tərəfindən qorunur. Bəs ermənilər nə ediblər? Azərbaycan Prezidenti çıxışlarından birində bu suala çox müdrik cavab verib: "Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər. Beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox".

Erməni vandalları və onların havadarları utanmadan belə bir yalan məlumat yaymışdılar ki, Yuxarı Gövhər ağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu riyakarlıqdır. Əslində, bu "təmirçilər" Azərbaycanın icazəsi olmadan, qanunsuz torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub terror planları həyata keçiriblər. Təəssüf doğuran budur ki, Türkiyə və Pakistan istisna olmaqla, müsəlman dövlətləri bu məscidlərin erməni vandalları tərəfindən bərbad günə salınmasına heç bir reaksiya verməmişlər. Hətta beynəlxalq təşkilatlar bu məsələyə etinasız yanaşaraq susmuşlar.

Görünən odur ki, işğaldan azad edilmiş ərazilərdə erməni vandalları tərəfindən dağıdılmış dini abidələr bərpa edilir, yenidən qurulur. Artıq illərlə həsrətində olduğumuz bu müqəddəs torpaqlarımıza, Ağalıya dönüşlə dədə-baba yurdumuza Böyük qayıdışın uğurlu yolları açılıb. Bunun davamı kimi yaxın günlərdə Laçına, Zabuxa qayıdışla işğaldan azad edilmiş bütün Azərbaycan torpaqlarında yeni həyat başlanır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# TARİXİ QARŞILAŞMA

## "Qarabağ" bu gün səfərdə Çexiya "Viktoriya"sı ilə gərgin oyun keçirəcək

**UEFA Çempionlar Liqası**
**Pley-off, cavab oyunu**

**23:00 "Viktoriya" (Çexiya) - "Qarabağ" (Azərbaycan)**
**Baş hakim:** Artur Diaş (Portuqaliya)
**Plzen, "Dusen Arena"**
*İlk oyun 0:0*





Bu gün diqqətlər Çexiyaya yönələcək. UEFA Çempionlar Liqasının pley-off mərhələsinin cavab qarşılaşmasında Ağdamın "Qarabağ" klubu səfərdə "Viktoriya"nın qonağı olacaq. Plzendə tribunalarda anşlaq olacaq, ekran qarşısında milyonların qəlbi "Qarabağ"la döyünəcək.

Azərbaycanda olduğu kimi, Çexiyada da bu matça yüksək maraq var. Plzendəki görüş üçün biletlər satışa çıxarıldıqdan cəmi 2-3 saat sonra tam alınıb.

Qeyd edək ki, oyunun keçiriləcəyi Plzen kiçik şəhərdir. Son statistikaya əsasən, onun 169 min əhalisi var. "Viktoriya" ev oyunlarını şəhərdəki "Dusan Arena"da keçirir. 1955-ci ildə açılışı olmuş bu stadionun hazırda 11 min 700 tamaşaçı tutumu var. Bu, "Qarabağ"ın avrokuboklarda ev oyunlarını keçirdiyi Tofiq Bəhramov adına Respublika Stadionundan üç dəfəyə yaxın azdır.

İndi isə keçək qarşılaşmada "Qarabağ"ı nələr gözləyə bilər, onun təhlilinə. Ağdam təmsilçisini çox çətin səfər matçı gözləyir. Çox güman ki, 4-3-3 oyun formatı ilə meydançaya çıxacağı gözlənilən Ağdam klubu müdafiənin arxasına atılan toplarda, əks hücumlarda və standart vəziyyətlərdə çox diqqətli olmalıdır. Çünki Bakıdakı qarşılaşmadan fərqli olaraq meydan sahiblərinin dogma divarlar arasında 4-4-2 taktiki sxemi ilə meydançaya çıxacaqları gözlənilir. İlk matçda topu "Qarabağ"a verərək daha çox topsuz oyun planı seçən Plzen təmsilçisinin bu dəfə də müdafiədə "avtobus" quracağı heç kimə sirr deyil. Lakin "Viktoriya"nın məşqçilər korpusu ilk oyundan fərqli olaraq 3-cü zonada topu daha çox saxlamaqları üçün Tomaş Xorı və Yan Klimenti eyni anda meydançaya buraxa bilər. Hündür boya malik Xorının ikili mübarizələrdə topa daha çox sahib olması boş koridorlar açaraq komandanın hücumda çoxalmasına imkan yarada bilər.

Xüsusilə Çexiya təmsilçisində cinahlarda oynayan futbolçuların çox sürətli keçidləri fonunda komandamız müdafiə xəttində daha diqqətli olmalıdır. "Qarabağ"da sağ və sol cinah müdafiəçilər rəqibin hücumları zamanı mərkəzə doğru çəkilərək boş zona buraxmamalıdırlar.

Belə qənaətə gəlmək olar ki, ilk dəqiqələrdə Ağdam təmsilçisi topa daha çox sahib olaraq qısa ötürmələrə üstünlük verəcək. Rəqibin qapalı müdafiə xəttini aşmaq üçün isə mütləq uzaqdan vurulan zərbələrə üstünlük vermək lazımdır. Daha yüksək fiziki hazırlığın tələb olunduğu oyun planı fonunda rəqibə boş zona yaratmamağa çalışılmalıdır. Bu oyun planı işə düşərsə, komandamız rəqibə qarşı üstünlük əldə edə bilər. Abdulla Zubirin tez-tez cinahları dəyişməsi, İbrahima Vadjinin topsuz oyunlarda rəqib müdafiəçiləri üzərinə çəkməsi "Viktoriya"nın arxa xəttində balansın pozulmasına səbəb yaradar. Bu fonda isə Kadi Borqes və Filip Ozobiç üçün boş zonalar yaranar ki, uzaqdan vurulan zərbələr nəticəsində istədiyimiz qolu vurmaq imkanına sahib olarıq. Müdafiənin mərkəzində daha sayıq görünən Çexiya klubu cinahlarda heç də uğurlu deyil. Çünki Bakıdakı matçdan fərqli olaraq, oyunun müəyyən hissələrində bəzən sağ və ya sol cinah müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə qayıtmaqda ciddi problem yaşayırlar. Belə ki, hücumda çoxalarkən müdafiə olunmaqda say baxımından geri qalan Plzen təmsilçisi ilə komandamız səbirli, həyəcana yol vermədən oynayaraq istədiyi nəticəni qazana bilər.

"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Çexiyaya yollanmamışdan əvvəl Heydər Əliyev Beynəlxalq Aeroportunda jurnalistlərə açıqlamasında komandada əhvali-ruhiyyənin yaxşı olduğunu bildirib: "Hər şey yolunda və qaydasındadır. Təkcə bizə cavab qarşılaşmasında yaxşı oyun göstərmək qalır. Hazırlığımız pis alınmayıb. "Turan Tovuz"la Premyer Liqanın 3-cü turundakı matç təxirə salınmışdı. Görüşə daha rahat hazırlaşmaq imkanımız olub. Amma yenə də vaxtımız az idi. Hər halda proqramımızda dəyişiklik etdik. Biz daha çox iki gün əvvəl səfərə çıxırıq. Amma bu dəfə bir gün əvvəl Çexiyaya yollanırıq. Əlavə məşqə də ehtiyacımız var idi. Bu səbəbdən belə addım atdıq".

Necə deyərlər, inanmaq uğurun yarısıdır. Səfərdə qazanılacaq qələbə növbəti tarixi nəticəyə imza atmaq üçün çox əla imkan yaradacaq. Niyə də yox?!

Vurduğun qol olsun, "Qarabağ"!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Təhlükə artır

## Yeni növ koronavirus sərhəd tanımır

2019-cu ildən bəri dünyanın ən böyük təhlükəli bəlasına çevrilən, insanları sağlamlıqları ilə sınağa çəkən koronavirus yay mövsümünün gəlişi ilə nisbətən vəziyyəti stabilləşdirmişdi. Belə ki, yay aylarının ilk günlərində Azərbaycanda, eləcə də dünyada yoluxmaların sayında və ölüm hallarında azalmalar müşahidə edilirdi. Bu da beynəlxalq səhiyyə qurumları tərəfindən ikiillik mübarizənin uğurlu nəticəsi kimi dəyərləndirilirdi. Lakin gözlənilməz bir anda xəstəliyə yoluxanların sayı artmağa və xüsusilə dünya ölkələrində mərhələli qapanmaların tətbiqinə başlanıldı.

### "Omikron"un yeni növü fərqli əlamətlərlə özünü göstərir

Hazırda yoluxma saylarını artıran, ötürücülük qabiliyyəti əvvəlki ştamlardan da kəskin olan "Omikron"un BA.5 altnövü mövcud durumu gərginləşdirib. Bu altvariantın ölüm riski aşağı olsa da, sanki bir göz qırpımında şəxsdən şəxsə keçiricilik gücünə malikdir.

Bu günə qədər ən yoluxucu variant kimi qeyd edilən bu növə qarşı mütəxəssislər diqqətli olmağın vacibliyini vurğulayırlar. Hətta o da qeyd edilir ki, yeni növdə simptomlar digərlərindən fərqli formada özünü göstərir. Araşdırmalara görə, boğaz ağrısı, baş ağrısı, hərarət, halsızlıq, burun axması və öskürək kimi simptomlar yeni variantın əlamətləridir. Bu əlamətlər qripə olduqca bənzədiyindən onları fərqləndirmək də çətin olur.

Koronavirusun çox tez yayıldığını və təsirlərinin insandan insana dəyişdiyini deyən Akdeniz Universitetinin rektoru, həkim professor Özlenen Özkan bildirib ki, PZR testi mənfi çıxsa belə oxşar əlamətləri olanlar cəmiyyətdən təcrid olunmalıdırlar. COVID-19-un simptomlarının mutasiyalardan sonra dəyişdiyini izah edən Ö.Özkan bildirib ki, bəzi hallarda test nəticəsi mənfi olan bəzi xəstələr də virusa yoluxmuş ola bilərlər. Sadalanan əlamətləri hiss edənlər özləri ilə birlikdə digərlərini də düşünməlidirlər".

Həkim onu da qeyd edir ki, ən böyük risk qrupu yaşlı və xroniki xəstələrdir: "Onlar özlərini daha çox qorumalıdırlar. Virusa qarşı immuniteti gücləndirmək üçün düzgün qidalanmaq, vitamin qəbul etmək, yatmaq, stresdən uzaq olmaq çox vacibdir. Koronavirusun belə inkişaf mərhələsi ilə onun gedişatını proqnozlaşdırmaq olduqca çətindir".

Professorun vurğuladığı kimi, isti keçən yay aylarında soyuqdəymə və qripin qurbanına çevrilmək daha asan olur. Belə ki, insanlar sərinləmək üçün içdiyi buzlu içkiləri, günboyu kondisioner altında oturmaqlarını səbəb görərək halsız, hərarət və sair simtompları olduğu zaman bunları ciddiyə almadan soyuqdəymə əlamətləri hesab edirlər. Lakin belə hallar müşahidə edilərsə, ona etinasız yanaşmaq yalnız yoluxmaların sayında artıma, qarşıda bizi gözləyən qapanmaların tətbiqinə səbəb ola bilər.

### Dünyada və ölkəmizdə yoluxanların sayının artması müşahidə edilir

Hazırda yoluxmaların sayında birinci ölkə kimi ABŞ qərarlaşıb. Yoluxmaya görə növbəti ölkələr sırasında isə Hindistan, Fransa, Braziliya, Almaniya, Böyük Britaniya yer alır. Ötən günlərdə Rusiyada da vəziyyət kəskinləşib. Burada son sutkada yeni altnövə 33 mindən çox insan yoluxub. 57 nəfərin isə virusdan öldüyü bildirilib.

Azərbaycanda son həftələrdə virusa yoluxanların sayında artım olsa da, ölüm halları aşağı səviyyədədir. Vəziyyət nəzarət altındadır. Vaksinasiya prosesi davam etdirilir. Məhz vurulan peyvəndlərin nəticəsidir ki, yoluxan şəxslər xəstəliyi ağır keçirmirlər, əvvəlki vaxtlarda olduğu kimi ölüm təhlükəsi ilə üz-üzə qalmırlar. 2 il ərzində qazanılan kütləvi immunitet COVID-19-la mübarizənin ən böyük nəticəsidir. Lakin bundan sonra da yarana biləcək təhlükəyə hazırlıqlı olmaq üçün hər kəs tövsiyə olunan dozada vaksinləri vurdurmalı, qapalı məkanlara daxil olarkən maskadan istifadə etməlidir. Unutmamalıyıq ki, koronavirusa yalnız birlikdə qalib gələ bilərik.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***






Əliövsət Quliyev - 100

# Böyük Azərbaycan alimi və ictimai xadim



*Bir elm sahəsi kimi tarix elminin əhəmiyyəti ilk növbədə xalqın öz keçmişinə münasibətini formalaşdırması ilə bağlıdır. İnsanı və zamanı qarşılıqlı əlaqə şəraitində tədqiq edən tarix sadəcə olub-keçmiş hadisələrin xronologiyasını müəyyənləşdirmir, həm də bu hadisələrin elmi şərhini verir və onları milli, regional və qlobal miqyasda bir-birinə bağlayan qanunauyğunluqları üzə çıxarır.*

*Azərbaycan tarix elminin fundamental əsaslarının yaradılması, milli tarixşünaslıq məktəbinin ərsəyə gəlməsi böyük alim və istedadlı elm təşkilatçısı, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Əliövsət Quliyevin fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə ölkəmizdə ilk dəfə olaraq monumental üççildlik "Azərbaycan tarixi" akademik nəşri yaradılmış, Azərbaycanın yeni dövr tarixinə dair dəyərli toplular, monoqrafiyalar və dərsliklər çap edilmişdir.*

*Azərbaycan elminin şöhrətini artırmış bu görkəmli şəxsiyyətin qısa, lakin son dərəcə məzmunlu ömür yolu bu gün də gənc alimlərimizi yaradıcılığa, axtarışlara çağıran bir örnək, elmə sədaqətlə xidmət etmək nümunəsidir.*

Tale Əliövsət Quliyevə cəmi 47 il ömür bəxş etmişdi. O, 1922-ci ildə Salyan rayonunun Qızılağac kəndində dünyaya gəlmişdi. Atası Nəcəfqulu kişi camaat arasında böyük nüfuzu olan el ağsaqqalı idi. Halal zəhməti ilə səkkiz övladının əlini çörəyə çatdırmağa çalışırdı. Belə bir sadə ailədə böyüyən Əliövsət Quliyevin gələcəkdə Azərbaycanın görkəmli alimlərindən biri olacağı o vaxt heç kəsin ağlına gəlməzdi. Amma Əliövsət Quliyevin dərin ağlı və səriştəsi hələ orta məktəb illərində özünü göstərməyə başlamışdı. Eşitdiklərini dərhal qavraması, qeyri-adi yaddaşı, təhlil etmək bacarığı hər kəsi heyran edirdi.

Əliövsət Quliyev 1935-ci ildə orta məktəbi bitirərək, Salyan Pedaqoji Məktəbinin Tarix fakültəsinə daxil oldu. Kənd məktəbində olduğu kimi, burada da o, fitri istedadı, müstəqil düşünmək və fikir demək bacarığı, habelə öyrənmək həvəsi sayəsində müəllimlərinin sevimli tələbəsinə çevrilmişdir. Pedaqoji məktəbdə təhsil ala-ala Salyandakı 4 nömrəli orta məktəbdə tarix fənnindən dərs deyirdi. O vaxt onun cəmi 15 yaşı var idi. Bu qədər gənc yaşında müəllimlik etməsi gələcək alimdə gərəkli olan bir çox keyfiyyətlərin - öz fikrini dəqiq ifadə etmək və dinləyicilərə aydın, əyani və anlaşıqlı şəkildə çatdırmaq bacarığının, fikirlərinin auditoriya tərəfindən başa düşülüb qavranılmasına nail olmaq qabiliyyətinin formalaşmasına şərait yaratmışdır.

Pedaqoji məktəbi 1939-cu ildə bitirdikdən sonra Əliövsət Quliyev Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuşdur. Eyni zamanda pedaqoji fəaliyyətini də davam etdirmiş, 172 nömrəli orta məktəbdə tarix müəllimi kimi çalışmışdır.

Gələcəyin böyük alimi bütün vaxtını öyrənməyə, seçdiyi ixtisasın sirlərinə dərindən yiyələnməyə sərf edirdi. Kitabxanalardan çıxmır, tarixə dair kitabları oxuyub öyrənməyə, təhlil edib dəyərləndirməyə xüsusi maraq göstərirdi. Azərbaycanın Orta əsrlər və Yeni dövr tarixi onda daha böyük maraq doğururdu. Lakin o, ölkə tarixinin digər dövrlərini də dərindən mənimsəməyə çalışırdı. Əliövsət Quliyevi gənc yaşlarında tanıyan adamlar onun Azərbaycan tarixini bu qədər qısa müddətdə necə dərindən öyrənə bildiyinə valeh olmuşdular.

Əliövsət Quliyevin fenomenal biliyi və parlaq istedadı diqqəti cəlb etməyə bilməzdi. 1942-ci ildə dördüncü kurs tələbəsi olarkən onun universitetin Filologiya fakültəsində tarix müəllimi vəzifəsinə qəbul edilməsi nadir hadisələrdən biridir. Həmin il Tarix fakültəsinin, daha sonra isə universitetin həmkarlar ittifaqı komitəsinin sədri seçilməsi də cəlbedici və mühüm fərqləndirici addımlar idi.

Azərbaycan Dövlət Universitetini 1944-cü ildə fərqlənmə diplomu ilə bitirdikdən sonra Əliövsət Quliyev Azərbaycan tarixi kafedrasının tövsiyəsi ilə həmin kafedrada müəllim kimi saxlanıldı, eyni zamanda Azərbaycan tarixi ixtisası üzrə universitetin aspiranturasına daxil oldu. Aspiranturada oxumaqla və universitetdə işləməklə yanaşı, o, respublika ali məktəb və elmi idarə işçilərinin həmkarlar ittifaqı təşkilatında ictimai fəaliyyətlə də məşğul olurdu. Əliövsət Quliyev 1945-ci ildə Azərbaycan SSR Həmkarlar İttifaqı Komitəsinin sədri seçilmiş, 1950-ci ilin ortalarınadək bu vəzifədə çalışmışdır.

Hələ 26 yaşında ikən, 1948-ci ildə böyük uğurla namizədlik dissertasiyası müdafiə edən Əliövsət Quliyev universitetin Tarix fakültəsinin dekanı təyin edilmişdir. Həmin ilin payızında isə Əliövsət müəllimin həyatının ən vacib və əhəmiyyətli mərhələsi başlanmışdır. Respublikanın ovaxtkı rəhbərliyi tərəfindən ona öz miqyasına görə möhtəşəm bir missiya - Azərbaycan tarixinin yazılması işini təşkil etmək və bu işə rəhbərlik etmək vəzifəsi həvalə edilmişdir. Beləliklə, Əliövsət Quliyev öz həyatının baş əsərini yaratmağa başlamışdır. Onun rəhbərliyi ilə redaksiya heyəti müəyyən edilmiş, əsərin əsas konsepsiyası hazırlanmış, Azərbaycan tarixinin planı tərtib edilmiş, müəlliflər heyəti seçilib müəyyənləşdirilmişdir.

Üç cilddən ibarət bu mühüm tarixi salnamə üzərində işləyərkən Əliövsət Quliyevin istedadı və yüksək elmi yetkinliyi parlaq şəkildə təzahür etmişdir. Bu çoxcildlik əsərin yaradılması üçün apardığı araşdırmalar sayəsində Əliövsət Quliyev Azərbaycan xalqının tarixi ilə bağlı bir sıra vacib problemlərin aydınlaşdırılmasına böyük elmi töhfələr vermişdir. Onun yazdığı fəsillərdə tariximizin mühüm dövrlərinin aydın və obyektiv elmi mənzərəsi verilmiş, az öyrənilmiş məsələlərə işıq salınmışdır. Əliövsət müəllim üççildliyin digər hissələrinin mətnini şəxsən özü yazmasa da, onların yaradılmasında fəal surətdə iştirak etmişdir. O, fəsillərin hamısını diqqətlə oxuyub redaktə edir, lazım gələndə hər söz uğrunda belə çarpışmaqdan çəkinmirdi. Nəhayət, on beş il böyük səylər tələb etmiş bu möhtəşəm əsər 1963-cü ildə tam halda başa çatdırılmışdır. Bütün bunlardan sonra ən qədim çağlardan XX əsrin ortalarınadək olan dövrləri əhatə edən üççildlik Azərbaycan tarixi xalqın ixtiyarına verilmişdir.

Sovet tarix elminin sərt ideoloji konsepsiyalarının meydanda olduğu bir şəraitdə bu cür üççildliyin yaradılması mühüm alimlik və böyük vətənpərvərlik hünəri idi. Əliövsət Quliyevin rəhbərliyi ilə yaradılmış bu nadir əsərdə irəli sürülən elmi-nəzəri müddəalar Azərbaycanda tarix elminin sonrakı inkişafının təməlində dayanmış, Azərbaycan tarixşünaslığının istiqamətləndirilməsində özünəməxsus əhəmiyyətə malik olmuşdur.

Tanınmış tarixçi alim Əliövsət Quliyev Moskvada doktorluq dissertasiyasını böyük müvəffəqiyyətlə müdafiə etmiş, elə həmin il professor adına layiq görülmüşdür. 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilərkən Əliövsət müəllim artıq tarix elmi sahəsində təkcə Azərbaycanda deyil, həm də onun hüdudlarından uzaqlarda da tanınan məşhur bir alim kimi qəbul olunurdu. Səksənə qədər elmi əsərin müəllifi olan görkəmli tədqiqatçı Azərbaycan tarixinin problem məsələləri, xüsusən Azərbaycan xalqının mənşəyi, Azərbaycanda feodal münasibətlərinin meydana gəlməsi, Azərbaycanın XVI-XVIII əsrlər tarixi barəsində özünün mötəbər elmi sözünü demişdir. Həmmüəllifi olduğu "XIX əsrdə - XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin təşəkkülü və inkişafı", "Azərbaycan tarixşünaslığı (XX əsrin əvvəlləri)" əsərləri, ali və orta məktəblər üçün ilk "Azərbaycan tarixi" dərsliyi, müəllifi olduğu "Dünya xalqları" silsiləsindən "Qafqaz xalqları", "Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkat tarixindən (1941 - 1946-cı illər)", "Azərbaycan. Tarixi oçerk" əsərləri və digər tədqiqatları elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Görkəmli tarixçi alimin elmi redaktorluğu ilə tariximizin müxtəlif dövrlərinə və aktual problemlərinə dair onlarca kitab nəşr edilmişdir.

Görkəmli Azərbaycan alimi Əliövsət Quliyev öz zəhməti və istedadı sayəsində bir-birinin ardınca elmi fəaliyyətin mötəbər zirvələrini fəth etmişdir. O, 1952-1958-ci illərdə Azərbaycan Elmlər Akademiyası Tarix və Fəlsəfə İnstitutunun direktoru, 1967-1969-cu illərdə isə Elmlər Akademiyası Tarix İnstitutunun direktoru vəzifəsində çalışmışdır. Bu elmi-tədqiqat institutunun respublikada tarix elminin əsas mərkəzinə çevrilməsi, keçmiş Sovet İttifaqının ən güclü elm ocaqlarından biri kimi tanınması, şübhəsiz ki, Əliövsət Quliyevin adı ilə bağlı idi. Çox geniş dünyagörüşü, tükənməz enerjisi, nadir təşkilatçılıq qabiliyyəti, böyük nüfuzu sayəsində o, Azərbaycan tarixçilərini eyni məqsəd naminə birgə fəaliyyət göstərən vahid kollektiv şəklində birləşdirə bilmişdi. Əliövsət Quliyev tarix elminin və rəhbərlik etdiyi institutun səviyyəsini və əhəmiyyətini o qədər yüksəltmişdi ki, sahə üzrə nazirlər, MK aparatının məsul işçiləri elmi şuranın iclaslarında iştirak etməyi özlərinə borc bilirdilər. İctimai elmlərə, xüsusən tarix elminə dair mühüm dövlət qərarları əksər hallarda tarixçi alimlərin müzakirələrindən sonra institutla razılaşdırılmaqla qəbul edilirdi.

Böyük elm təşkilatçısı Əliövsət Quliyev respublikanın ictimai-siyasi həyatında yaxından iştirak edirdi. O, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti yanında Toponimika Komissiyasının ilk sədri olmuş, bu vəzifəni yerinə yetirərkən böyük təşkilati iş aparmışdır. O, hakim ideologiyanın yaratdığı çətinliklərə baxmayaraq respublika ərazisində yeni coğrafi adların müəyyən edilməsi və ya mövcud yer adlarının dəyişdirilməsi prosesində ölkə maraqlarının qorunmasına, yerli toponimlərdən istifadə olunmasına üstünlük verməyə çalışmışdır.

Görkəmli alim keçmiş SSRİ məkanında, eləcə də bir sıra xarici ölkələrdə keçirilmiş mötəbər elmi tədbirlərdə Azərbaycan elmini ləyaqətlə təmsil etmiş, doğma xalqının zəngin tarixi və mədəni irsini dünyaya tanıtmaq üçün əlindən gələni əsirgəməmişdir. Yeri gəlmişkən, qeyd edək ki, Əliövsət Quliyev dünya əhəmiyyətli bir sıra tədqiqatların hazırlanmasında da fəal iştirak etmişdir. Alimin Azərbaycan xalqının tarixi ilə bağlı bir sıra məqalələri SSRİ ensiklopediyalarına daxil edilmiş, keçmiş sovet respublikalarında, Hindistanda, Çexoslovakiyada və başqa ölkələrdə çap olunmuşdur.

Zəngin elmi potensiala malik olan Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əliövsət Quliyev gənc kadrların yetişdirilməsi üçün böyük əmək sərf etmişdir. Onun rəhbərliyi ilə təkcə Azərbaycanda deyil, həm də bir sıra xarici ölkələrdə namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur. Azərbaycan tarixçilərinin, arxeoloqlarının və etnoqraflarının bütöv bir nəsli onun yetirmələridir.

İstedadı və zəhmətsevərliyi ilə görkəmli alim və böyük ictimai xadim səviyyəsinə yüksəlmiş Əliövsət Quliyevin Azərbaycan elminin və ictimai fikrinin inkişafı sahəsindəki xidmətləri layiqincə qiymətləndirilmişdir. Görkəmli elm xadimi "Qırmızı Əmək Bayrağı" ordeni, medallar və fəxri fərmanla təltif edilmişdir.

Akademiyanın müxbir üzvü Əliövsət Quliyev yüksək mənəvi keyfiyyətlərə malik olan bir insan kimi həmkarları, alim yoldaşları, dostları və yaxınları arasında çox böyük hörmət qazanmışdır. O, Azərbaycan ziyalılığının ən gözəl xüsusiyyətlərini özündə cəmləşdirirdi. Əliövsət müəllim cəmiyyətdə son dərəcə təvazökar və prinsipial şəxsiyyət, elm sahəsində isə həm özünə, həm də tələbələrinə tələbkar münasibət bəsləyən görkəmli vətəndaş alim kimi tanınmışdır.

Əliövsət Quliyevdə bədii yaradıcılığa da güclü meyil var idi. O, eyni zamanda elm və mədəniyyətimizin müxtəlif problemləri ilə bağlı da mətbuatda elmi-publisist məqalələrlə çıxış edirdi. Azərbaycan Jurnalistlər Birliyinin üzvü idi. Ağır xəstə olanda da qələmini yerə qoymur, son nəfəsinə qədər yazıb-yaradırdı. Onun fundamental tədqiqatları ilə yanaşı, elmi-publisist irsində də ölkəmizin və xalqımızın gələcəyinə işıq salan məsələlər öz əksini tapmışdır.

Qədirbilən Azərbaycan xalqı Vətən tarixini öyrənməyi öz qısa ömrünün mənasına və məqsədinə çevirmiş, xalqın özünü dərk etməsi, şərəfli keçmişinə bələd olması üçün böyük səylər göstərmiş Əliövsət Quliyevi heç vaxt unutmur. Görkəmli alim və ictimai xadimin xatirəsinə hörmət əlaməti olaraq Bakıda bir küçəyə onun adı verilmiş, yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur. Doğulub boya-başa çatdığı Salyan rayonunun Qızılağac kəndindəki orta məktəb Əliövsət Quliyevin adını daşıyır.

Böyük tarixçi alim və bacarıqlı elm təşkilatçısı olan Əliövsət Quliyev o insanlardan idi ki, onların həyatı və əməlləri əbədilik ölkəsinin salnaməsinə daxil olmuşdur. O, Azərbaycanın tarixinə obyektiv elmi baxışı müəyyənləşdirən, Vətən tarixini və ictimai fikrimizi yad təsirlərdən qoruyan vətəndaş alimlərdən biri idi. Akademiyanın müxbir üzvü Əliövsət Quliyevin adı ilə bağlı olan elmi ənənələr bu gün də yaşayır və müstəqillik dövrü Azərbaycan tarixçi alimlərinin yeni nəsillərinin yetişməsinə uğurla xidmət edir.

Azərbaycan tarix elminin inkişafı yollarında şərəflə xidmət göstərmiş görkəmli elm xadimi, akademiyanın müxbir üzvü Əliövsət Quliyevin adı və xatirəsi unudulmur, zəngin elmi irsi yaşadılır.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik***

# Gəncə şəhər rəhbərliyi uşaq evini ziyarət edib







Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Gəncə Uşaq Evinin sakinlərini ziyarət edib. Gəncə Uşaq Evinin sakinləri ilə görüşən şəhər rəhbəri onların qayğıları ilə maraqlanıb.

Qeyd olunub ki, valideyn himayəsindən məhrum olan uşaqlar dövlətimizin xüsusi diqqəti və qayğısı ilə əhatə olunublar. Onların sağlam, savadlı, tərbiyəli və vətənpərvər ruhda böyüməsi üçün burada hər cür şərait yaradılıb.

Həmin gün 12 yaşı tamam olan Gəncə Uşaq Evinin sakini Əlibala Abbasovun doğum günü də qeyd olunub. Bu münasibətlə Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən çay süfrəsi təşkil edilib, Ə.Abbasova və digər uşaqlara müxətlif hədiyyələr təqdim olunub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Qazaxda Xalq şairi Mirvarid Dilbazinin 110 illiyi qeyd edilmişdir





Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri - Xalq şairi Mirvarid Dilbazinin anadan olmasının 110 illiyi təntənə ilə qeyd edilmişdir. Qazax Rayon İcra Hakimiyyətinin, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının, "Qazax" Xeyriyyə İctimai Birliyinin və "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən yubiley tədbiri Ulu Öndər Heydər Əliyevin Xalq şairi Mirvarid Dilbazini "İstiqlal ordeni" ilə təltifetmə mərasimindən hazırlanmış videoçarxın nümayişi ilə başlamışdır.

Yubileyi giriş sözü ilə "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri Güllü Eldar Tomarlı açaraq tədbir iştirakçılarını, Mirvarid Dilbazi işığına toplaşanları salamlamış, Qazax mahalında Azərbaycanın ilk qadın Xalq şairi Mirvarid Dilbazinin 110 illiyinin təntənə ilə qeyd olunmasını onun yaradıcılığına verilən yüksək qiymətin bariz nümunəsi kimi dəyərləndirmişdir.

Sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək tədbir iştirakçılarını şairlər yurdu Qazaxda görməkdən məmnunluğunu ifadə etmişdir. Bildirmişdir ki, ədəbiyyatımızda qədim dövrlərdən bəri qadın şairlərimiz az olmayıb. Məhsəti Gəncəvi, Heyranxanım, Xurşidbanu Natəvan, Ağabəyim ağa Ağabacı və başqaları lirik şeirləri ilə ədəbiyyat tariximizdə dərin iz qoymuşlar. Bu sırada Mirvarid Dilbazinin də öz yeri var. XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən olan Mirvarid Dilbazi çoxçeşidli mövzularda yazdığı əsərləri ilə zəngin bir ömür yaşamışdır. XX əsrin əvvəllərindən başlayaraq, xüsusən də Cümhuriyyət dövründə və sonrakı illərdə Azərbaycanda böyük bir maarifçi nəslin yetişməsində onun böyük rolu olmuşdur. Həmin vaxtda bədii yaradıcılığa başlamış Mirvarid Dilbazinin "Qadınların hürriyyəti" adlı ilk şeiri "Oktyabr alovlanır" məcmuəsində dərc olunmuşdur. 1934-cü ildə isə "Bizim səsimiz" adlı kitabı işıq üzü görmüşdür. Elə o vaxtlardan zamanın nəbzini tutan, mənəvi gücünə söykənərək, özünün poetik inciləri ilə xalqın yetişməsi, inkişafı istiqamətində qələm çalan Mirvarid Dilbazi Vətənin taleyi, qüdrətlənməsi yolunda ideoloji mübarizəsini böyük coşqu ilə davam etdirmişdir.

Yubiley tədbirində o da vurğulanmışdır ki, Xalq şairinə dövlətimiz tərəfindən daim diqqət və qayğı göstərilmişdir. Ulu Öndər Heydər Əliyev ona böyük dəyər verərək 18 avqust 1997-ci ildə Mirvarid Dilbazini "İstiqlal" ordeni ilə təltif etmişdir. Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Xalq şairi Mirvarid Dilbazinin 100 illik yubileyinin təntənəli keçirilməsinin təmin edilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 16 may 2012-ci il tarixli sərəncam imzalanmışdır.

Sonra tədbirdə Azərbaycan Yazıçılar Birliyi Qazax filialının sədri, Əməkdar incəsənət xadimi Barat Vüsal, "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə Heyətinin sədri, professor İlham Pirməmmədov, şair-publisist Məti Osmanoğlu, şair Səadət Buta və başqaları çıxış edərək ürək sözlərini söyləmişlər.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Ağstafada rayon ağsaqqalları ilə görüş keçirilmişdir

Ağstafanın Səməd Vurğun adına Mədəniyyət və İstirahət Parkında təşkil olunmuş görüşdə rayon rəhbərliyi ilə yanaşı, hüquq-mühafizə orqanlarının nümayəndələri, tanınmış ziyalılar və ağsaqqallar iştirak etmişlər.



Tədbir iştirakçıları öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla yad etmişlər. Sonra rayon icra hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək bildirmişdir ki, Azərbaycanda ağsaqqallar daim yüksək hörmət və nüfuz sahibi olmuşlar. Çünki hər bir yeniyetmə və gəncin vətənpərvərlik, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə hörmət ruhunda tərbiyə olunmasında onların müstəsna xidmətləri var.

Görüşdə çıxış edən rayon ağsaqqalları şanlı qələbəmizdən sonra Azərbaycan iqtisadiyyatında qazanılan uğurlardan danışmış, ölkəmizdə hökm sürən ictimai-siyasi sabitliyə, əmin-amanlığa, günbəgün qüdrətlənən iqtisadi gücümüzə, işğaldan azad olunmuş ərazilərimizdə aparılan nəhəng infrastruktur layihələrin reallaşdırılmasına, əhalinin sosial rifah halının yaxşılaşdırılmasına görə Prezident İlham Əliyevə ağstafalılar adından minnətdarlıqlarını bildirmişlər.

Görüşdə Ağstafa rayonunda abadlıq-quruculuq, sosial-iqtisadi, mədəni və digər sahələrdə icra olunan tədbirlər ətraflı müzakirə olunmuş, ağsaqqalların tövsiyələri dinlənilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Təkrar

# "Azərişıq" ASC Salyan rayonu, Şorsulu kəndlərinin ərazilərində 10 kV-luq hava xəttinin, KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1: Salyan rayonu, Şorsulu kəndlərinin ərazilərində 10 kV-luq hava xəttinin, KTM-lərin və 0,4 kV-luq ÖİN xətlərinin yenidən qurulması işlərinin satın alınması.

İştirak haqqı 750 manat

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namiq Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: **namiq.heybetov@azerishiq.az**
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə(sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə Vergi Bəyannaməsi);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(www.tender.gov.az).**

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 sentyabr 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 sentyabr 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 sentyabr 2022-ci il saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***





# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi (Ağdam, Ağdaş, Astara, Balakən, Beyləqan, Bərdə, Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Hacıqabul, Xaçmaz, İmişli, Kürdəmir, Qəbələ, Qobustan, Quba, Lerik, Lənkəran, Masallı, Naftalan, Neftçala, Oğuz, Saatlı, Salyan, Samux, Siyəzən, Şabran, Şəki, Şəmkir, Ucar, Yevlax, Zaqatala, Zərdab şəhər və rayonları üzrə)" və "Ahıllar üçün Günərzi qayğı mərkəzlərinin fəaliyyətinin təşkili" (Gəncə, Xaçmaz, Qazax, Qax şəhər və rayonları üzrə)" adlı təkrar müsabiqələr keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi (Ağdam, Ağdaş, Astara, Balakən, Beyləqan, Bərdə, Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Hacıqabul, Xaçmaz, İmişli, Kürdəmir, Qəbələ, Qobustan, Quba, Lerik, Lənkəran, Masallı, Naftalan, Neftçala, Oğuz, Saatlı, Salyan, Samux, Siyəzən, Şabran, Şəki, Şəmkir, Ucar, Yevlax, Zaqatala, Zərdab şəhər və rayonları üzrə)" və "Ahıllar üçün Günərzi qayğı mərkəzlərinin fəaliyyətinin təşkili" (Gəncə, Xaçmaz, Qazax, Qax şəhər və rayonları üzrə)" adlı təkrar müsabiqələr keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 02 sentyabr 2022-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 05 sentyabr 2022-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)

***Müsabiqə komissiyası***

# Müasir dünyanın yeni reallıqları

## Qaz və neft əvəzinə hidrogen layihələri işə salınır

Dünya alimləri belə qənaətə gəliblər ki, tezliklə neft erası bitəcək və "qara enerji"dən "yaşıl enerji"yə keçid prosesi daha da genişlənəcək. Artıq demək olar ki, bu proses reallaşmaq üzrədir. Hazırda dünyada getdikcə daha çox yeni hidrogen layihələri işə salınır. Bəs o, harada tətbiq oluna bilər və uzunmüddətli perspektivdə faydası nədir?




Bir çox ölkələrdə "yaşıl" hidrogen qaz şəbəkələri və avtomobil nəqliyyatı üçün perspektivli yanacaq kimi qəbul edilir. Bunun səbəbi hidrogenin istixana qazı emissiyalarını azaltmağa kömək etməsidir. Eyni zamanda iqlim dəyişikliyi probleminin həllinə fayda verə bilər. Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, Avropanın qaz şəbəkəsinə 20 faiz hidrogen əlavə etmək CO2 emissiyalarını (karbon qazı) ildə 60 milyon ton azaldacaq. Məsələn, Danimarkada hər il eyni miqdarda karbon qazı istehsal olunur.

"Yaşıl" və ya ekoloji cəhətdən təmiz hidrogen istehsalı üçün bərpa olunan enerji mənbələrinə ehtiyac var. Hidrogenin istifadəsi yalnız CO2 emissiyalarını azaltmaq deyil, həm də qənaət etmək imkanı verəcək. Qaz və hidrogen qarışığı adi təbii qazdan daha çox istilik yaradır. Bu həm əhali, həm də sənaye istehlakçıları - metallurgiya zavodları və ya kimya müəssisələri üçün faydalı olardı.

### Hidrogen harada istifadə edilə bilər?

İqtisadiyyatın bütün əsas sektorlarında hidrogendən istifadə etmək mümkündür. Məsələn, istilikdə təbii qaz əvəzinə, metallurgiyada kömür əvəzinə və ya nəqliyyat üçün yanacaq kimi.

Dünyada hidrogen yanacaqdoldurma məntəqələrinin sayı artır. Bu proses Yaponiya, Çin, Almaniya, ABŞ və Kanadada daha aktivdir. Eyni zamanda avtomobil konsernləri hidrogen yanacağı elementləri üzərində avtomobillər istehsal edir. Ən məşhur modellər arasında Toyota Mirai, Honda Clarity, Mercedes-Benz, BMW Hydrogen 7 və Hyundai Nexo var.

Latviyanın paytaxtı Riqada hidrogenlə işləyən trolleybuslar mövcuddur. Londonda isə hidrogen yanacaq elementləri ilə işləyən 34 ədəd H2.City Gold avtobusu hərəkət edir.

Hidrogen təkcə yeni nəqliyyat infrastrukturunun inkişafı üçün istifadə olunmur. Kənd təsərrüfatında bu qazdan ammonyak istehsal etmək olar. Ammonyak azotlu gübrələrin əsasını təşkil edir, onlardan bitkilərin düzgün inkişafı və böyüməsi, həmçinin məhsuldarlığın artırılması üçün istifadə olunur.

Metallurgiyada hidrogen odadavamlı metalları əritmək və qaynaq etmək üçün istifadə edilə bilər. Bundan əlavə, boruların termik emalı zamanı qoruyucu azot-hidrogen atmosferi yaratmaq mümkündür.

Neft emalı sənayesinin də hidrogenə ehtiyacı var. Bu, sulfid xammaldan yanacaq almaq üçün lazımdır. Şüşə sənayesində hidrogendən float üsulu ilə kvars və ya düz şüşə istehsal etmək üçün istifadə olunur.

Ancaq ən maraqlı tətbiq sahələrindən biri yaşayış binalarının qızdırılmasıdır. Artıq bütün dünyada oxşar təcrübələr hazırlanır. Böyük Britaniyada isə dünyada ilk dəfə olaraq evin istiləşməsi üçün 20 faiz hidrogendən və təbii qaz qarışığından istifadə etməyə başlayıblar. Layihəyə 2020-ci ilin yanvar ayının sonunda start verilib.

Hidrogenin Hollandiyada da evləri qızdırmağa başladığı məlumdur. Rozenburq şəhərində yaşayış binasını qızdırmaq üçün dünyada ilk dəfə olaraq hidrogenlə işləyən məişət qazanı istifadəyə verilmişdir.

Bu sahədə Ukraynada da artıq müəyyən işlər görülüb. İlk genişmiqyaslı təcrübə 2019-cu ilin fevral ayının sonunda Regional Qaz Şirkəti (RQŞ) tərəfindən hazırlanmağa başlanıb. RQŞ Ukraynada ilk dəfə olaraq qazpaylayıcı sistemin qapalı hissələrində hidrogen və təbii qaz qarışığının sınaq nəqlini həyata keçirib.

Yaponiya, Almaniya, Hollandiya, Çin, Hindistan və digər ölkələr hidrogenlə təcrübə aparır.

### Hindistan və Çin "təmiz hidrogen" istehsalında lider ola bilər

Çin və Hindistan "yaşıl hidrogen"in istehsalı və istifadəsi üzrə dünya lideri olmaq potensialına malikdir, baxmayaraq ki, hazırda ondan istifadə imkanları məhduddur. Bu barədə dünən CNBC telekanalı məlumat yayıb. ABŞ-ın Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin baş elmi işçisi Ceyn Nakano hesab edir ki, həm Çin, həm də Hindistan təkcə "təmiz hidrogen"in potensial təchizatçıları və ixracatçıları kimi deyil, həm də istehlakçıları və istifadəçiləri kimi əsas oyunçu olmaq potensialına malikdirlər.

Bununla belə alim qeyd edib ki, Çin bir çox başqa ölkələr kimi hələ də təbii qazdan əldə edilən "boz hidrogen"i istehsal və istehlak edir. Bu, hidrogenin ekoloji cəhətdən ən az təmiz formasıdır.

Hidrogen iqlim böhranı ilə mübarizədə mühüm rol oynaya bilər, çünki onun yaratdığı enerji karbon qazı buraxmır. Digər tərəfdən, "təmiz hidrogen"in istehsalı baha başa gəlir və sənaye hələ başlanğıc mərhələsindədir.

Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin məlumatlarına görə, hazırda Çin hər il hamıdan çox - təxminən 33 milyon ton hidrogen istehsal edir ki, bunun da əksəriyyəti mədən yanacağından alınır.

Nakanonun fikrincə, Çində hidrogenin potensial istehsalının və sonradan istehlakının miqyasını nəzərə alaraq, ölkənin "boz hidrogen" istehsalından uzaqlaşmağa davam etməsi çox vacibdir.

Çin hökuməti 2025-ci ilə qədər "yaşıl hidrogen"in istifadəsini artırmağı qarşısına məqsəd qoyub.

Hindistan da öz növbəsində 2030-cu ilə qədər ildə 5 milyon ton "yaşıl hidrogen" istehsal etməyi planlaşdırır. Bununla belə ölkədə istehsal olunan hidrogenin demək olar ki, hamısı "boz" olaraq qalır. Nakano bildirib ki, hidrogen bazarı hazırda kiçikdir və onun kommersiyalaşdırılması bir neçə il çəkəcək. Beləliklə, hidrogen hələ də geniş istifadədən uzaqdır. Hidrogenin çox hissəsi eyni yerdə istehsal olunur və saxlanılır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Təkrar

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün kompüter və noutbukların satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər.

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (arayış 01.08.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.08.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə sertifikatı, uyğunluq sertifikatı və s.);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 15.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 23.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 26.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Redaksiya və nəşr işləri şöbəsinin müdiri Hafiz Babayevə anası

**SƏBİRƏ BABAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nizam, Əli, Hacı Müşfiq, Rafiq və Mobil Hüseynovlar, Rza, Mircəfər və Mircəlil İsmayılovlar, İlham və Tural İbrahimovlar, Əlövsət Əliyev Müstəqim İsmayılova əzizi

**ORUC ALI OĞLU HACIYEVİN**

Füzuli rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6364
Sifariş 2344
Qiyməti 40 qəpik